# 525-ci qəzet

12 iyul 2012-ci il, cümə axşamı №122 (3678). Qiymәti 20 qәpik

www.525.az


## *İlham Əliyev:* "Dövlət orqanlarının biznes strukturlarına əsassız müdaxilələrinə son qoyulmalıdır"

### AZƏRBAYCAN PREZİDENTİNİN SƏDRLİYİ İLƏ NAZİRLƏR KABİNETİNİN 2012-Cİ İLİN 6 AYININ YEKUNLARINA HƏSR OLUNAN İCLASI KEÇİRİLDİ



Dünən İyulun 11-də Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2012-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. "APA-ECONOMICS"in AzTV-yə istinadən verdiyi məlumata görə, son 6 ayda ölkə iqtisadiyyatının inkişaf etdiyini və qarşıda duran vəzifələrin uğurla icra olunduğunu deyən Prezident İlham Əliyev bu ilin 6 ayında ÜDM 1,5, qeyri-neft sektorunun 11,3 faiz artdığını bildirib. "Bu, dünya iqtisadiyyatında ən yüksək göstəricidir" deyən dövlət başçısı bundan sonrakı illərdə də əsas diqqətin bu sahənin inkişafına yönəldiləcəyini vurğulayıb.

Bildirib ki, son 6 ayda sənaye istehsalının ümumi həcmi neft hasilatının aşağı düşməsi nəticəsində 3 faiz azalsa da, qeyri-neft sənayesinin inkişafı 8,3 faiz olub. Makroiqtisadi vəziyyət sabitdir, inflyasiya cəmi 2,2 faiz olub, əhalinin pul gəlirləri isə 14,2 faiz artıb. Kənd təsərrüfatında 10,4 faiz artım qeydə alınıb.

Prezident İlham Əliyev bu il şimal-qərb bölgəsində baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırıldığını, operativ tədbirlər nəticəsində evlərini itirən insanlar üçün dövlət hesabına yeni mənzillərin tikildiyini deyib: "Bundan əlavə, Bakı və ətraf qəsəbələrdə dövlət proqramına uyğun olaraq böyük həcmli işlər gedir, infrastruktur layihələri icra olunur, sosial layihələr həyata keçirilir. Regional inkişaf proqramının icrası nəticəsində 6 ayda bölgələrdə 46 min yeni iş yeri yaradılıb ki, onlardan da 37 mini daimidir".

Prezident əmək bazarında ilk növbədə Azərbaycan vətəndaşlarının işlə təmin olunmasının vacibliyinə diqqət çəkərək miqrantların ölkədə fəaliyyətinin tənzimlənməsi və bu sahədə qayda-qanunun yaradılması istiqamətində tədbirlərin görülməsinin vacibliyini bildirib. "Sosial məsələlərin həlli daim diqqət mərkəzindədir" deyən dövlət başçısı sovet dövründən qalan əmanətlərin qaytarılması və ünvanlı sosial yardımın verilməsi prosesinin davam etdiyini diqqətə çatdırıb.

Qeyd edib ki, bu, hökumətin yürütdüyü siyasətin sosial xarakterini gücləndirməyə xidmət edir. "Bizim siyasi, iqtisadi gücümüz diqtə edir ki, Azərbaycan əhalisi daha da artsın" deyən dövlət başçısı bildirib ki, ölkədə əhalinin sayı artıq 9,3 milyon nəfərə çatıb.

Prezident ölkənin beynəlxalq mövqelərinin gücləndiyini, tərəfdaşların sayının artdığını, xarici siyasətlə bağlı fəaliyyətin genişləndiyini də diqqətə çatdırıb. "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyimiz ədalətə və beynəlxalq prinsiplərə əsaslanır" deyən prezident danışıqlar prosesində müəyyən durğunluğun olduğunu deyərək "status-kvo"nun dəyişdirilməsinin vacibliyini diqqətə çatdırıb.

Sonra maliyyə naziri Samir Şərifov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev bu ilin 6 ayında görülən işlər və qarşıda duran vəzifələrlə bağlı məruzə ediblər.

İclasa Prezident İ. Əliyev yekun vurub. Dövlət başçısı ilin sonuna qədər iqtisadiyyatda müsbət meyllərin daha da güclənəcəyinə əminliyini ifadə edib, inflyasiyanın səviyyəsinin və manatın məzənnəsinin qorunub saxlanması, iqtisadi islahatların daha da sürətləndirilməsi, biznes iqliminin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını verib. Bildirib ki, dövlət orqanlarının biznes strukturlarına əsassız müdaxilələrinə tamamilə son qoyulmalı, elektron sistemə keçid sürətlə aparılmalı, ölkədə yeni sənaye parklarının və iri fermer təsərrüfatlarının yaradılması, köhnəlmiş sənaye müəssisələrinin paytaxtın mərkəzindən kənara köçürülməsi istiqamətində mühüm tədbirlər görülməlidir. Bundan əlavə, bəzi kənd və qəsəbələrdə əhalinin içməli su ilə daha yaxşı təmin olunması, alternativ enerji mənbələrindən istifadənin stimullaşdırılması, Azərbaycanın və tərəfdaş ölkələrin enerji təhlükəsizliyinin təmin olunması ilə bağlı tapşırıqlarını verən prezident TANAP layihəsinin əhəmiyyətindən danışıb.

Dövlət başçısı paytaxtda ekoloji vəziyyətin daha da yaxşılaşdırılması, təhsil müəssisələrinin tikintisi və yenidən qurulmasına dair tapşırıqlarını verərkən gələn ilin büdcəsinin sosial və investisiya yönümlü olacağını bildirib. Qeyd edib ki, indi Azərbaycanın strateji valyuta ehtiyatları 44 milyard dollardır və xarici dövlət borcu ÜDM-in 7 faizini təşkil edir. Prezident bu ilin mayında keçirilən "Evrovizion" beynəlxalq mahnı müsabiqəsinin yüksək səviyyədə təşkil edildiyini və müsabiqə tarixində ən gözəl yarışmasının Bakıda baş tutduğunu bildirib. Dövlət başçısı müsabiqə ərəfəsində erməni lobbisinin və antimilli qüvvələrin iştirakı ilə dünyanın bəzi dairələrinin Azərbaycana qarşı apardığı çirkin kampaniyanın təəssüf doğurduğunu vurğulayıb: "Biz güclüyük və bizim gücümüz xalqın dəstəyidir".

## Heydər Əliyev Fondu ilə BMT-nin təşkilatı arasında əməkdaşlıq müzakirə olunub



İyulun 10-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva BMT-nin Ərzaq və Kənd Təsərrüfatının (FAO) rəhbəri Məhəmməd Ruiqinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Görüşdə Fondun vitse-prezidenti Leyla Əliyeva iştirak edib. APA-nın məlumatına görə, Azərbaycanın birinci xanımı Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti barədə qonaqlara məlumat verib. Fondun 2004-cü ildən fəaliyyət göstərdiyini deyən Mehriban Əliyeva qurumun müxtəlif sahələrdə, xüsusilə də humanitar sahədə bir çox layihələr həyata keçirdiyini bildirib. BMT ilə sıx əməkdaşlığın qurulduğunu qeyd edən Heydər Əliyev Fondunun prezidenti bu təşkilatla birlikdə bir neçə müştərək layihənin reallaşdırıldığını qeyd edib. Azərbaycanın birinci xanımı gələcəkdə də bu əməkdaşlığın davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Mehriban Əliyeva FAO-nun nümayəndə heyətinin ölkəmizə səfərinin əməkdaşlığın inkişafına yeni təkan verəcəyinə ümidvar olduğunu bildirib. Fondun prezidenti Azərbaycan dövlətinin BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının fəaliyyətinə kömək etməyə hazır olduğunu vurğulayıb. Mehriban Əliyeva Heydər Əliyev Fondunun da qeyri-hökumət təşkilatı kimi əməkdaşlığa hazır olduğunu diqqətə çatdırıb. Azərbaycanın birinci xanımı rəhbərlik etdiyi Fondun bir çox nüfuzlu beynəlxalq qurumlarla, o cümlədən UNİCEF və UNESCO ilə uğurlu əməkdaşlığından danışıb. Mehriban Əliyeva bu əməkdaşlığın FAO ilə də uğurlu istiqamətdə qurulacağına əmin olduğunu bildirib.

FAO missiyasının rəhbəri Məhəmməd Ruiqi Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva və Fondun vitse-prezidenti Leyla xanım Əliyevanın gördüyü işləri yüksək qiymətləndirdiyini bildirib. Görüşdə Heydər Əliyev Fondunun FAO-nun Romadakı baş ofisi ilə əməkdaşlığı, ərzaq təhlükəsizliyi, həmçinin bu sahədə xüsusi uşaq müəssisələrinin yaradılması məsələləri müzakirə olunub.

## Amerikalı diplomat hüquq müdafiəçiləri ilə görüşdü

### *ADAM STERLİNQ:* "ABŞ İNSAN HAQLARI SAHƏSİNDƏ VƏZİYYƏTİN DAHA DA YAXŞILAŞDIRILMASI ÜÇÜN AZƏRBAYCAN HÖKUMƏTİNƏ DƏSTƏK VERMƏYƏ HAZIRDIR"



ABŞ-ın Azərbaycanda müvəqqəti işlər vəkili Adam Sterlinq Dövlət Departamentinin 2011-ci ildə insan hüquqları ilə bağlı mayda dərc olunmuş illik hesabatını müzakirə etmək üçün qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyətinin nümayəndələri ilə görüş keçirib. APA-nın məlumatına görə, iştirakçılar ölkədə insan haqlarının vəziyyətini, o cümlədən söz və mətbuat azadlığı, qanunun aliliyi, mülkiyyət hüququ və digər məsələləri müzakirə ediblər. Görüşə hüquq müdafiəçilərindən Novella Cəfəroğlu, Arzu Abdullayeva, Səidə Qocamanlı da qatılıb.

Adam Sterlinq bildirib ki, insan haqları sahəsi ABŞ üçün prioritet olaraq qalır: "Azad mətbuat, aktiv vətəndaş cəmiyyəti və qanunun aliliyi istənilən demokratiyanın əsas tərkib hissələridir. ABŞ ölkədə insan haqları sahəsində vəziyyətin daha da yaxşılaşdırılması üçün Azərbaycan hökumətinə dəstək verməyə hazırdır".

Diplomat jurnalistlərlə söhbətindən bildirib ki, qeyd olunan illik hesabatda dünya ölkələrində, o cümlədən Azərbaycanda vəziyyətlə bağlı məqamlar da var. Hesabatın Azərbaycana həsr olunmuş hissəsində üç istiqamət üzrə narahatlıq əksini tapıb: "Birincisi, sərbəst toplaşmaq hüququna məhdudiyyətlərin qoyulmasıdır. İkinci narahatlıq hüquq sistemindəki durum, xüsusilə icra hakimiyyətinin məhkəmə hakimiyyətinə təsiri ilə bağlıdır. Üçüncü narahatlıq doğuran məqam isə vətəndaşların mülkiyyət hüquqlarının pozulması, evlərinin sökülməsidir".

Adam Sterlinq ölkədə insan haqları sahəsində pozitiv dəyişiklikləri də qeyd edib. O, 2 aprel aksiyası zamanı saxlanan 9 nəfərin azadlığa buraxılmasını alqışlayıb: "Bu bizə optimizm üçün əsas verir. Mən yenə də həbsdə olan şəxslərin, o cümlədən Vidadi İsgəndərov və Şahin Həsənlinin ədalətli və şəffaf əsaslarda mühakimə olunmasına yönəlmiş çağırışımı təkrarlayıram".

Diplomat Bakı şəhər İcra Hakimiyyətinin bu ilin yazında müxalifətə aksiya keçirmək üçün razılıq verməsini də pozitiv tendensiya kimi dəyərləndirib.

Müvəqqəti işlər vəkili bildirib ki, ABŞ səfirliyi Quba və Sabirabadda baş verən hadisələrlə bağlı saxlanan şəxslərin, Oqtay Gülalıyev və İlham Əmiraslanovun, Hilal Məmmədovun, fotoblogger Mehman Hüseynovun işi üzrə istintaqın gedişini diqqətdə saxlamaqda davam edir. O həmçinin jurnalist İdrak Abbasovun döyülməsi, Rafiq Tağının qətlə yetirilməsi və Xədicə İsmayılovanın işi ilə bağlı təhqiqatda irəliləyiş əldə olunmasına çağırıb.

## Rusiya Xəzərdəki artilleriya gəmilərini modernləşdirir

Rusiya Hərbi Dəniz Qüvvələrinin Xəzər Flotiliyasının artilleriya gəmilərini modernləşdirir. Bu barədə APA Rusiya Müdafiə Nazirliyinin saytına istinadən məlumat verib. Modernləşdirmə nəticəsində gəmilər müasir kombinasiya edilmiş dizel-qaz edilmiş dizel-qaz turbini ilə təchiz olunub. Eyni zamanda gəmilərin döyüş hissələri, silah sistemləri, rabitə vasitələri və avtomatikası müasirləşdirilib. Gəmilərə QLONASS naviqasiya vasitələri qurulub. Modernləşdirilmiş ilk kiçik artilleriya gəmisi olan MAK-160 daxil olmaqla, Xəzər Flotiliyasının 15 gəmisinin iştirakı ilə yaxın günlərdə dənizdə döyüş atışı ilə təlimin keçirilməsi planlaşdırılır.

## Cəbhədə ATƏT-in monitorinqi keçirildi

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq dünən Azərbaycan Respublikasının Ağdam-Bərdə yolundakı təmas xəttində monitorinq keçirilib. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, monitorinq insidentsiz başa çatıb. Monitorinqi Azərbaycan tərəfdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Uilyam Prayor və Xristo Xristov keçiriblər. Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Antal Herdiç və Jiri Aberle izləyib.

Qeyd edək ki, monitorinq zamanı ATƏT-in Minsk Qrupunun həmsədrləri İqor Popov (Rusiya), Robert Bradtke (ABŞ), Jak For (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik (Polşa) təmas xəttinin qarşı tərəfinə keçiblər.

ATƏT nümayəndələri Dağlıq Qarabağda və İrəvanda danışıqlar aparacaqlarını bildiriblər.

## Daha bir televiziya kanalının lisenziya müddəti uzadılıb

Dünən Milli Televiziya və Radio Şurasının (MTRŞ) növbəti iclası keçirilib. Şuradan APA-ya verilən məlumata görə, iclasda Xaçmazda fəaliyyət göstərən "RTV"-nin (Regional TV) televiziya yayımı üçün xüsusi razılığının (lisenziya) uzadılması ilə bağlı müraciətinə baxılıb. RTV-nin fəaliyyəti ərzində heç bir qayda pozuntusuna yol vermədiyi və regional kanallar arasında nümunəvi olduğu qeyd edilib və kanalın lisenziyası daha 6 il müddətinə uzadılıb.

## "Yaşar Nurinin Azərbaycana nə vaxt qayıdacağı məlum deyil"

### XALQ ARTİSTİNİN YENİDƏN TÜRKİYƏDƏ MÜALİCƏSİNƏ BAŞLANILIB



Azərbaycanın Xalq artisti, Akademik Milli Dram Teatrının Yaşar Nuri Türkiyədəki Amerika Xəstəxanasına yerləşdirilib. Aktyorun həyat yoldaşı Rəhimə Nuriyeva APA-ya deyib ki, sözügedən xəstəxanada yenidən müalicəyə başlanılıb: "Sağ-salamat gedib çatıblar. Artıq xəstəxanaya yerləşdirilib və müalicəsinə başlanılıb. Bakıda hərarəti qalxmışdı, onun səbəbləri araşdırılır. Bu, bir-iki günlük məsələ deyil. Müayinə və lazımi müalicə aparılacaq. Nə vaxt qayıdacağı məlum deyil". R. Nuriyeva deyib ki, bu günlərdə özü də Türkiyəyə getməyi planlaşdırır.

Qeyd edək ki, Yaşar Nuri ötən ilin noyabr ayından etibarən müalicə olunur. Uzun müddətdən sonra vətənə qayıdan aktyorun halı pisləşib və yenidən Türkiyəyə aparılıb.

## Türk ordusunun PKK ilə mübarizədəki itkilərinin sayı açıqlandı



PKK terror təşkilatının silahlı terror aksiyalarına başladığı 1984-cü ildən indiyə qədər Türkiyə Silahlı Qüvvələrinin 6 min 169 əsgər və zabiti şəhid olub. APA-nın xəbərinə görə, bu rəqəmi Türkiyənin müdafiə naziri İsmət Yılmaz müxalifətdəki Cümhuriyyət Xalq Partiyasının (CHP) millət vəkili Gürkut Acar tərəfindən verilən yazılı sorğunu cavablandırarkən açıqlayıb. Nazir bu müddətdə 4008 hərbçinin yaralandığını bildirib. O, terrorçuların fəaliyyət göstərdiyi təhlükəli zonalarda xidmət edən əsgər və zabitlərə ödənən kompensasiyanın miqdarının artırıldığını da diqqətə çatdırıb.

## Sankt-Peterburqda azərbaycanlılarla taciklər arasında qarşıdurma baş verdi

Rusiyanın Sankt-Peterburq şəhərində azərbaycanlılarla taciklər arasında qarşıdurma baş verib.

APA-nın xəbərinə görə, Rusiya Prokurorluğunun İstintaq Komitəsinin Sankt-Peterburq şəhəri üzrə Baş İstintaq İdarəsi hadisə ilə bağlı rəsmi açıqlama yayıb. Açıqlamada bildirilir ki, iyulun 10-da gecə şəhərin Nevsk rayonunda azərbaycanlılarla taciklər arasında oynanan futbol matçından sonra tərəflər arasında münaqişə yaranıb. Bıçaqlar və dəyənəklərdən istifadə olunmaqla başlayan dava-dalaş zamanı müxtəlif bədən xəsarətləri alan 2 Tacikistan vətəndaşı ölüb. Daha 6 nəfər yaralanıb. Fakt üzrə təhqiqat aparılır.

## ARDNŞ-ın Monteneqroda turizm layihəsi üzrə tenderə qatılmasının səbəbi açıqlandı

### *RÖVNƏQ ABDULLAYEV:* "HOTEL BİZNESİ İLƏ MƏŞĞUL OLMAQ PLANLARIMIZ YOXDUR"



Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) Monteneqroda turizm layihəsi üzrə tenderə qatılması şirkətin planları deyil və Azərbaycanın turizm şirkətlərinə dəstək göstərilməsi məqsədi daşıyır.

"APA-Economics"in xəbərinə görə, bu barədə ARDNŞ prezidenti Rövnəq Abdullayev bildirib. Onun sözlərinə görə, Azərbaycanın bəzi turizm şirkətləri həmin layihədə tenderə qatılmaq istəsələr də, imkanları tenderdə qoyulan tələblərə cavab verməyib: "Ona görə də ARDNŞ Azərbaycanın ən böyük şirkəti və iqtisadiyyatının lokomotivi olaraq, eləcə də beynəlxalq səviyyədə layihələr həyata keçirən və Avropada tanınan şirkət olaraq Azərbaycanın turizm şirkətlərinə dəstək məqsədilə bu tenderə qatılıb".

R.Abdullayev qeyd edib ki, ARDNŞ bu layihəyə investisiya qoymaq niyyətində deyil və belə planları da yoxdur: "Məqsəd Azərbaycanın turizm şirkətlərinə təşkilati və hüquqi dəstək göstərməkdir. Layihənin idarə olunması ilə Azərbaycanın turizm şirkətləri məşğul olacaq. ARDNŞ-ın hotel biznesi ilə məşğul olmaq planları yoxdur".

## Ermənilər bir neçə istiqamətdə atəşkəsi pozublar

Azərbaycan torpaqlarının bir hissəsini işğal altında saxlayan Ermənistan Silahlı Qüvvələri qoşunların təmas xəttində atəşkəs rejimini pozmaqda davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, erməni silahlı bölmələri dünən və bu gecə Füzuli rayonunun Aşağı Seyidəhmədli, Goranboy rayonunun Tapqaraqoyunlu, Cəbrayıl rayonunun Mehdili, Xocavənd rayonunun Kuropatkino, Ağdam rayonunun Şıxlar və Sarıcalı kəndləri yaxınlığında və adsız yüksəkliklərdə yerləşən mövqelərdən atəşkəs rejimini pozublar. Düşmən cavab atəşi ilə susdurulub.

## Ordumuz cəbhədə genişmiqyaslı hərbi təlimlərə başladı

### TƏLİMLƏRDƏ QURU QOŞUNLARI VƏ HƏRBİ HAVA QÜVVƏLƏRİ İŞTİRAK EDİR

Azərbaycan Ordusu cəbhə bölgəsində növbəti genişmiqyaslı hərbi təlimlərə başlayıb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, iyulun 9-dan başlayan təlimlər həftənin sonuna qədər davam edəcək.

Müdafiə naziri, general-polkovnik Səfər Əbiyevin komandanlığı altında keçirilən təlimə Quru Qoşunları və Hərbi Hava Qüvvələrinin şəxsi heyəti cəlb olunub. Təlimlərdə müasir texnika və silahlardan istifadə olunacağı nəzərdə tutulur.

# *Əbülfət İmanov:* "Son bir ay ərzində 23 müəssisənin fəaliyyəti dayandırılıb"



Dünən Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi (SMPDK) yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti tərəfindən mətbuat konfransı keçirilib. Dövlət Nəzarəti Xidmətinin rəisi Əbülfət İmanov bildirib ki, "Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Prezidentinin 4 aprel tarixli Fərmanına əsasən yaradılmış SMPDK yanında Texniki Tənzimləmə və Standartlaşdırma üzrə Dövlət Nəzarəti Xidməti respublikada texniki tənzimləmə və standartlaşdırma sahəsində qanunvericiliyə riayət edilməsi üzərində dövlət nəzarətini həyata keçirən icra hakimiyyəti orqanıdır. Onun sözlərinə görə, xidmətin fəaliyyətinə texniki tənzimləmə və standartlaşdırma sahəsində qanunvericiliyə riayət edilməsi üzərində dövlət nəzarəti, dövlət metroloji nəzarətini həyata keçirmək, texniki tənzimləmə və standartlaşdırma sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsində iştirak etmək və qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək aiddir. Xidmət rəisi qeyd edib ki, istehlakçı hüquqlarının qorunması, əhalinin keyfiyyətli məhsul, mal və xidmətlərlə təminatı, istehlak bazarının təhlükəli və normativ sənədlərin tələblərinə uyğun olmayan məhsullardan qorunması məsələləri Azərbaycanda dövlət siyasətinin əsas tərkib hissələrindən biridir: "Prezident İlham Əliyevin xüsusi göstəriş və tapşırıqlarına uyğun olaraq bu sahədə köklü islahatlar aparılır, vətəndaşlarımızın sağlamlığının qorunması, keyfiyyətli, beynəlxalq standartlara uyğun məhsullarla təminatı istiqamətində işlər görülür. Təbii ki, ölkə rəhbərliyi tərəfindən yaradılmış bu Xidmətin üzərinə çox böyük məsuliyyət düşür. Yarandığı qısa müddət ərzində etimadı doğrultmaq və keyfiyyətsiz, təhlükəli, normativ sənədlərin tələblərinə zidd istehsal olunan məhsul, mal və xidmətlərdən əhalini qorumaq üçün ciddi işlər görülüb. Son bir ay ərzində Bakı şəhəri üzrə 15, Sumqayıt Ərazi İdarəsi üzrə 4, Yevlax Ərazi İdarəsi üzrə 5, Gəncə Ərazi İdarəsi üzrə 8, Lənkəran Ərazi İdarəsi üzrə 7, Şəki Ərazi İdarəsi 8 olmaqla, ümumilikdə 47 istehsal sahəsində dövlət nəzarəti aparılıb. Aparılmış yoxlamaların nəticəsi olaraq 32 istehsal sahəsində normativ sənədlərin tələblərinə cavab verməyən məhsul istehsal olunduğuna görə, həmin müəssisələrə iradnamə və istehsalın qadağan olunması barədə 23 tələbnamə, 20 sahibkarlıq subyektinə məhsulların istehsalının və satışının qadağan olunması barədə tələbnamə verilib. İstehsal və satışın qadağan olunması barədə verilmiş tələbnamələrdən 4-ü süd məhsulları, 7-si alkoqolsuz içki, 6-sı çörək məhsulları, 2-si isə neft-mədən avadanlıqlarından qazma qurğusu və qaz balonlarının payına düşür. Eyni zamanda 27 sahibkarlıq subyektində inzibati xəta aşkar olunduğundan protokol tərtib edilərək, inzibati qaydada cərimə tətbiq olunub".

Ə.İmanov həmçinin bildirib ki, neqativ faktlarla bağlı ictimaiyyətin, QHT-lərin, yerli icra strukturlarının, bələdiyyələrin, mətbuatın məlumatları xüsusi əhəmiyyət kəsb edir: "Bunun üçün Komitənin saytı vasitəsilə, həmçinin 963 qaynar xətt nömrəsi vasitəsilə təhlükəli hesab olunan məhsullar, qeyri-qanuni fəaliyyət göstərən müəssisələr haqqında bizə məlumat verə bilərsiniz".

Tədbirdə son bir ay ərzində Xidmət tərəfindən həyata keçirilən tədbirlər nəticəsində aşkar olunan təhlükəli məhsul istehsal edən müəssisələr haqqında ətraflı məlumat verilib.

**BƏXTİYAR**

# AMEA-nın işçi qrupunun AMEA Rəyasət Heyətinin üzvləri ilə birgə iclası keçirilib

İyulun 10-da ölkə Prezidentinin "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" imzaladığı 2012-ci il 23 may tarixli Sərəncamının icrasını həyata keçirmək məqsədi ilə yaradılan işçi qrupunun Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin üzvləri və elmi-tədqiqat müəssisələrinin rəhbərləri ilə birgə iclası olub.

AzərTAc xəbər verir ki, AMEA-nın prezidenti akademik Mahmud Kərimovun sədrliyi ilə keçirilən iclasda AMEA Rəyasət Heyətinin üzvlərinin Dövlət Proqramı haqqında təklifləri dinlənilmiş, müzakirələr aparılmışdır.

Tədbirdə AMEA-nın Dilçilik, Şərqşünaslıq, Folklor, Memarlıq və İncəsənət, İnformasiya Texnologiyaları, Kibernetika, Coğrafiya, Aqrokimya və Torpaqşünaslıq, Genetik Ehtiyatlar, Neft-Kimya Prosesləri, Eroziya və Suvarma institutlarının, eləcə də Şamaxı Astrofizika Rəsədxanası, AMEA Mərkəzi Elmi Kitabxanası, H.Cavidin Ev Muzeyi, Bakı Dövlət Universiteti, Bakı Slavyan Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dillər Universitetinin mütəxəssisləri, AMEA-nın Naxçıvan Bölməsi və Gəncə Regional Elmi Mərkəzinin üzvləri, əlaqədar qurumların — Mədəniyyət və Turizm Nazirliyi, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Ədliyyə Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, Milli Televiziya və Radio Şurası, Azərbaycan Yazıçılar Birliyi, Mətbuat Şurasının, AMEA Prezidentinin Mətbuat Xidmətinin nümayəndələri iştirak etmişlər.

İclasda AMEA Rəyasət Heyətinin üzvləri birinci vitse-prezident akademik Arif Həşimov, vitse-prezidentlər akademik Akif Əlizadə, akademik Nailə Vəlixanlı, bölmələrin akademik-katibləri akademik Akif Hacıyev, akademik Nadir Seyidov, akademik Arif İsmayılzadə, müxbir üzv Kamal Abdullayev, elmi-tədqiqat müəssisə rəhbərləri akademik Telman Əliyev, müxbir üzv Məhərrəm Babayev, müxbir üzv Abbasqulu Quliyev, kənd təsərrüfatı üzrə elmlər doktoru Zeynal Əkpərov, kənd təsərrüfatı üzrə fəlsəfə doktoru Seymur Səfərli, sənətşünaslıq üzrə elmlər doktoru Ərtegin Salamzadə, filologiya üzrə elmlər doktorları Gövhər Baxşəliyeva, Muxtar İmanov, Aybəniz Əliyeva-Kəngərli, Gülbəniz Babaxanlı, filologiya üzrə fəlsəfə doktoru Paşa Kərimov, direktor müavinləri müxbir üzv Cavad Abdinov, müxbir üzv Ramiz Məmmədov, texnika üzrə elmlər doktoru Hikmət İbrahimov, iqtisadiyyat üzrə fəlsəfə doktoru Allahyar Muradov, fəlsəfə üzrə fəlsəfə doktoru Roida Rzayeva, tarix üzrə fəlsəfə doktoru Tofiq Nəcəfli, eləcə də şöbə müdiri, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Rəhim Zeynalov, baş elmi işçi, coğrafiya üzrə fəlsəfə doktoru Elbrus Əlizadə iştirak etmişlər.

İclasda işçi qrupunu akademiklər Ağamusa Axundov, Vasim Məmmədəliyev, müxbir üzvlər Tofiq Hacıyev, Rasim Əliquliyev, Nizami Cəfərov, Teymur Kərimli, filologiya üzrə elmlər doktorları Yusif Seyidov, Fəxrəddin Veysəlli, Nizami Xudiyev, Məsud Mahmudov, Azad Məmmədov, Sevinc Məhərrəmova, Sayalı Sadıqova, Məhəbbət Mirzəliyeva, Bilal İsmayılov, Qalina Udalıx, İlham Tahirov, Həbib Zərbəliyev Təranə Hacıyeva, pedaqogika üzrə fəlsəfə doktoru Ənvər Abbasov, Gülnarə Nəbibəyova, Əfruz Qurbanova, Fidumə Hüseynova, Faiq Xudanlı, Əbülfət Fətullayev, Əflatun Amaşov, Qafar Cəbiyev, filologiya üzrə fəlsəfə doktorları Yaşar Quluzadə, Gülarə Əmirova, Elnarə Əliyeva, Rasim Heydərov, Aytən Bəylərova, Nəzakət Ələkbərova, Nərmin Rəcəbova, habelə Ülvi Qiyasov, Natəvan Abbasova təmsil etmişlər.

İşçi qrupun növbəti iclası Azərbaycan Respublikasının Milli Məclisinin üzvləri ilə keçiriləcək.

# Misir Mərdanov Azərbaycanda rus liseylərinin yaradılmasını təklif edir



Azərbaycanın təhsil naziri Misir Mərdanov ölkədə rus liseylərinin yaradılması təklifini irəli sürüb. Misir Mərdanovun sözlərinə görə, son zamanlar ölkəmizin orta ümumi təhsil məktəblərində rus dilinə maraq artıb, ötən əsrin 90-cı illərinin əvvəllərindən fərqli olaraq, hazırda rus dilinin öyrənilməsinə diqqət güclənib: "Ali məktəblərdə rus dili ilə bağlı problem yoxdur. Bakı şəhərindəki məktəblərdə rus dilinin tədrisi yüksək səviyyədə aparılır". Təhsil nazirinin dediyinə görə, rayonlarda fəaliyyət göstərən rusdilli məktəblərdə tədris səviyyəsinin yüksəldilməsi üçün müvafiq işlər görülməlidir. Təhsil naziri gələn tədris ili üçün rus dilinin tədrisi proqramının hazırlanmasını da təklif edir. M.Mərdanov əlavə edib ki, "2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində həyata keçirilən "Elektron Təlimləndirən Sistemlər" layihəsinin əsas komponentlərindən biri olan Distant Təhsil Mərkəzi xüsusi qayğıya ehtiyacı olan şagirdlərin distant tədris metodları vasitəsilə orta təhsilini təmin edir. "Elektron Təlimləndirən Sistemlər" layihəsinin əsas məqsədi evdə təhsil alan sağlamlıq imkanları məhdud uşaqları distant təhsilə cəlb etməklə onların cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək və elektron resurslardan istifadə bacarıqlarının artırılmasını təmin etməkdən ibarətdir: "Layihə çərçivəsində 30 şagird və 7 müəllimə heyəti "Apple" şirkətinin istehsalı olan "Macbook" noutbukları verilib və şagirdlərin evlərdən Azərbaycan Təhsil Şəbəkəsinə qoşulması təmin olunub. Şagirdlərin dərs prosesinin idarə edilməsi məqsədi ilə 20 nömrəli məktəb-liseyin seçilmiş sinif otaqları yüksək sürətli fiberoptik internet bağlantıları ilə təchiz olunub. Eyni zamanda, xüsusi qayğıya ehtiyacı olan uşaqların Distant Təhsilinin icrasını təmin etmək məqsədilə müəllimlər, şagirdlər və valideynlər üçün informasiya-kommunikasiya texnologiyaları avadanlığından və texniki vasitələrdən istifadəyə dair metodik vəsait hazırlanıb".

**S.QARAYEVA**

# "Ballast sularının idarə edilməsi" ilə bağlı regional tədbir keçirilib

Dövlət Dəniz Administrasiyasının Beynəlxalq Dəniz Təşkilatı ilə birgə təşkil etdiyi "Ballast sularının idarə edilməsi" haqqında Beynəlxalq Konvensiya üzrə regional tədbir keçirilib. Dövlət Dəniz Administrasiyasının mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə Beynəlxalq Dəniz Təşkilatının ekspertləri ilə yanaşı, Xəzəryanı dövlətlər Qazaxıstan, Türkmənistan, İran və Rusiyadan nümayəndələr iştirak ediblər. Tədbirin keçirilməsində əsas məqsəd beynəlxalq dəniz daşımaları zamanı dəniz ətraf mühitinin mühafizəsi, gəmilər tərəfindən dənizin çirklənməsinin qarşısının alınması, dəniz bioloji mühitinin qorunub saxlanılması və çirklənmə ilə mübarizədə beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi üzrə təcrübə mübadiləsinin aparılması və mövcud təcrübə bazasının təkmilləşdirilməsi olub.




Bakıda artıq 4-cü dəfədir keçirilən tədbir yüksək səviyyəli təlim mahiyyəti daşıyır və Xəzəryanı dövlətlər üçün xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan Dövlət Dəniz Administrasiyasının rəis müavini E. Rəhimov Xəzər dənizində daşınmaların həyata keçirilməsi zamanı ballast sularının idarə edilməsi ilə bağlı beynəlxalq standartlarının yerinə yetirilməməsinin Xəzər dənizinin ekoloji mühitinə hansı fəsadlar verə biləcəyindən bəhs edərək, bu sahədə Xəzəryanı dövlətlər arasında əməkdaşlığın möhkəmləndirilməsinin vacibliyini qeyd edib. O, həmçinin bildirib ki, məhz belə tədbirlərin keçirilməsinin əsas məqsədi də Xəzər dənizinin ətraf mühitinin mühafizəsinin təmin edilməsi üçün Beynəlxalq Dəniz Təşkilatı tərəfindən müəyyən edilmiş standartlarla bağlı tədbir iştirakçılarına ətraflı məlumatın verilməsi və dəniz ətraf mühitinin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsidir.

**BƏXTİYAR**

# Məcburi köçkün və əlil uşaqlar üçün kompüter kursları yaradılıb

Gənclər və İdman Nazirliyi məcburi köçkün, sağlamlıq imkanları məhdud olan, eləcə də internat məktəblərində təhsil alan yeniyetmə və gənclər üçün kompüter kursları təşkil edib. Nazirliyin mətbuat xidmətinin rəhbəri Səmayə Məmmədovanın sözlərinə görə, kursların təşkil olunmasında məqsəd bu kateqoriyalardan olan gənclərə kompyuter biliklərinin öyrədilməsi və bunun vasitəsilə gələcəkdə onlara iş tapmalarında köməklik edilməsidir. Kurslar Laçın rayon Çıraqlı kənd tam orta məktəbinin Masazır qəsəbəsində yerləşən məktəbində, Türkan qəsəbəsində yerləşən 6 nömrəli xüsusi internat məktəbində, Sumqayıt şəhər G.Əsədov adına internat məktəbində və digər yerlərdə sağlamlıq imkanları məhdud gənclər üçün keçirilir: "Məlumat üçün bildirim ki, təlimlər iyulun 20-dək davam edəcək".S.Məmmədova əlavə edib ki, Nazirlər Kabineti Gənclər və İdman Nazirliyinin Kollegiyasının tərkibinə dəyişikliklər edib. Nazirlər Kabinetinin qərarına əsasən, İndira Hacıyeva Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri təyin olunub. Qərarda, həmçinin Fərhad Hacıyev Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun icraçı direktoru vəzifəsinə təsdiq olunub: "Qeyd edim ki, bundan öncə Fərhad Hacıyev Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri, İndira Hacıyeva isə Yaradıcı gənclərlə iş və asudə vaxtın təşkili sektorunun müdiri vəzifələrində çalışıblar".

**S.QARAYEVA**

# Ötən ay sənaye məhsulları 11,4 faiz ucuzlaşıb

İyun ayında sənaye məhsullarının istehsalçı qiymətləri əvvəlki aya nisbətən 11,4 faiz ucuzlaşıb. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ay ərzində mədənçıxarma sənayesi üzrə sənaye məhsullarının istehsalçı qiymətləri indeksi əvvəlki aya nisbətən 86,4 faiz təşkil edib. Bu bölmədə istehsalçı qiymətləri xam neft və təbii qaz hasilatı üzrə 13,7 faiz ucuzlaşıb.

Ötən ay emal sənayesi üzrə istehsalçı qiymətləri indeksi 99,3 faiz təşkil edib. Bu bölmədə istehsalçı qiymətləri kağız və karton istehsalı üzrə 9 faiz, kimya sənayesi üzrə 2,5 faiz, neft məhsullarının istehsalı üzrə 2,2 faiz, poliqrafiya fəaliyyəti üzrə 0,8 faiz, ağac emalı və ağacdan məmulatların istehsalı və içki istehsalı üzrə 0,6 faiz, əczaçılıq məhsullarının istehsalı üzrə 0,5 faiz, rezin və plastik kütlə məmulatlarının istehsalı və elektrik avadanlıqlarının istehsalı üzrə 0,2 faiz, maşın və avadanlıqlardan başqa hazır metal məmulatlarının istehsalı, maşın və qoşquların istehsalı üzrə 0,1 faiz ucuzlaşıb. Toxuculuq sənayesi üzrə 8,9 faiz, tikinti məmulatlarının istehsalı üzrə 4,4 faiz, kompüter və digər elektron avadanlıqların istehsalı üzrə 2,1 faiz, qida məhsullarının istehsalı üzrə 0,6 faiz, metallurgiya sənayesi və mebel istehsalı üzrə 0,5 faiz bahalaşıb.

Ay ərzində elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsi üzrə istehsalçı qiymətləri 0,4 faiz bahalaşıb.

**BƏXTİYAR**

# Məktəbəqədər təhsilə cəlb ediləcək uşaqlarla bağlı təhlillər aparılıb

Ölkə üzrə beşyaşlı uşaqların sayı və onların məktəbəqədər təhsilə cəlb edilməsi istiqamətində təhlillər aparılıb. Təhsil Nazirliyindən verilən məlumata görə, aparılan təhlillər nəticəsində məlum olub ki, 5 yaşlıların hamılıqla məktəbəqədər təhsilə cəlb edilməsi üçün 4649 yeni qrup açılmalıdır. 5 yaşlıların məktəbəqədər təhsilə cəlb olunması məqsədilə bölgələrdə məktəb binalarından, mədəniyyət evlərindən, kitabxana binalarından istifadə etməklə qısamüddətli təlim qruplarının yaradılması nəzərdə tutulub. Təhsil Nazirliyindən verilən məlumata görə, məktəbə hazırlıq və valideynlərin maarifləndirilməsi proqramlarının Bakı şəhərinin Xətai, eləcə də Lənkəran, Quba, Şamaxı, Göygöl, Füzuli rayonlarının uşaq bağçalarında tətbiqi davam edir. Qısamüddətli təlim qruplarına 687 uşaq cəlb edilib. Hazırda ölkədə 113498 uşağı əhatə edən 1660 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 4 xüsusi uşaq bağçası, ümumi təyinatlı 13 müəssisədə 22 xüsusi qrup fəaliyyət göstərir. Bununla yanaşı, 5 sanator tipli məktəbəqədər təhsil müəssisəsi də mövcuddur. Ölkə üzrə uşaqların məktəbəqədər təhsillə əhatə səviyyəsi hazırda 17,6 faiz (şəhər-25,7 faiz, kənd-9,5 faiz) faiz təşkil edir.

Qeyd edək ki, bu illər ərzində məktəbəqədər təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi sahəsində bir sıra tədbirlər həyata keçirilib.

**S.QARAYEVA**

# RİTN-də "elektron hökumət" üzrə seminar keçirilib

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində (RİTN) Koreya Respublikası və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlıq çərçivəsində "elektron hökumət" mövzusuna həsr olunmuş seminar keçirilib. RİTN-dən verilən məlumata görə, seminarda Koreya tərəfindən Xarici İşlər və Ticarət Nazirliyinin 3-cü katibi xanım Jung Ji-Seungun və Hökumətin innovasiyası və mərkəzləşdirilməsi üzrə prezident yanında Elektron hökumət komitəsinin üzvü və əsas məsləhətçisi, Cunbuq Dövlət Universitetinin professoru Kim Sanq-Ookun rəhbərliyi ilə informasiya texnologiyaları mütəxəssislərdən ibarət nümayəndə heyəti, Azərbaycandan isə dövlət qurumlarının nümayəndələri iştirak edib. Seminarın keçirilməsində məqsəd Koreyanın informasiya və kommunikasiya texnologiyaları (İKT) sahəsində əldə etdiyi nailiyyətlərin nümayiş etdirilməsi və qarşılıqlı fikir mübadiləsinin aparılması olub.

Tədbiri giriş sözü ilə açan rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə ilk öncə nazir Əli Abbasovun salamlarını seminar iştirakçılarına çatdırıb. Koreya ilə Azərbaycan arasında bütün sahələrdə olduğu kimi, İKT sahəsində də əməkdaşlığın mövcudluğunu söyləyən nazir müavini Koreyanın "elektron hökumət" sahəsində çoxillik təcrübəsinin və inkişaf yolunun Azərbaycan üçün əhəmiyyətli olduğunu söyləyib. Azərbaycanın bu sahədə əldə etdiyi nailiyyətləri qısa şəkildə diqqətə çatdıran E.Vəlizadə seminarın işinə uğurlar diləyib.

Öz növbəsində Sanq-Ook Kim seminarın keçirilməsinin məqsədi haqqında qısa məlumat verərək Koreyanın qazandığı böyük uğurları hamı ilə paylaşmağa hazır olduqlarını deyib, ölkədə informasiya texnologiyalarının inkişafı və gələcək perspektivləri ilə bağlı dövlət proqramlarının qəbul edildiyini və bütün işlərin uğurla davam etdiyini bildirib.

Seminarda Koreyadan gələn İT üzrə mütəxəssislərin müxtəlif mövzularda məruzələri dinlənilib. Daha sonra Azərbaycanın dövlət qurumlarının İT-mütəxəssisləri ilə fikir mübadiləsi aparılıb və suallar cavablandırılıb.

**BƏXTİYAR**

# Doktoranturaya qəbul üzrə yekun plan Nazirlər Kabinetinə təqdim olunub

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Akademiya sisteminə daxil olmayan elmi təşkilatlar üzrə (Təhsil Nazirliyi istisna olmaqla) doktoranturaya yekun qəbul planını Azərbaycan Nazirlər Kabinetinə təqdim edib. AMEA-nın mətbuat xidmətindən verilən məlumata görə, Akademiya üzrə fəlsəfə doktoru proqramı üçün 288 (158 əyani, 130 qiyabi), elmlər doktoru proqramı üçün 110 (26 əyani, 84 qiyabi) yer təklif edilib. Azərbaycan Milli Elmlər Akademiyası sisteminə daxil olmayan elmi təşkilatlar üzrə isə fəlsəfə doktoru proqramı üçün 234 yer təklif edilib. Onlardan 121 yer əyani, 113 yer qiyabidir. Elmlər doktoru proqramı üçün təklif edilən 59 yerdən 5-i əyani, 54-ü qiyabidir. AMEA sisteminə daxil olmayan elmi təşkilatlarda fəlsəfə doktoru hazırlığı üçün dissertanturaya 220, elmlər doktoru hazırlığı üçün isə 10 yer təklif edilib.

Akademiyanın məlimatında bildirilib ki, bu ayın axırınadək qəbul planları Azərbaycan Nazirlər Kabineti tərəfindən təsdiqlənəcək. Bundan sonra Azərbaycanda 2012-2013-cü tədris ili üzrə doktoranturaya qəbul elanı veriləcək.

**S.QARAYEVA**

# Ali məktəb məzunları haqqında elektron baza üzərində işlər yekunlaşıb



Təhsil Nazirliyi ali təhsil müəssisələrinin məzunları ilə bağlı elektron bazanın yaradılması üzrə işləri tam başa çatdırıb. Təhsil Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, nazirlik son bir il ərzində ali məktəbləri bitirən bütün məzunlarla bağlı informasiya bazasının elektron formata keçirilməsi üzrə işləri başa çatdırıb. İşlər əsasən özəl ali məktəblər üzrə aparılıb. Dövlət qurumları informasiya bazasına çıxış əldə edəcəklər ki, bu da ali məktəblərin diplom almış məzunlarının işə qəbulu zamanı yoxlama prosedurunu sadələşdirəcək. Ali məktəbin məzununun identifikasiyası diplomun nömrəsi üzrə həyata keçiriləcək. İnformasiya nazirliyin Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinə ötürülüb və məktəblər haqqında bütün informasiyanı yaxın vaxtlarda portal.edu.az təhsil portalında əldə etmək mümkün olacaq.

Qeyd edək ki, elektron bazanın yaradılması Təhsil Nazirliyinin Təhsilin idarə olunmasının məlumat sistemləri (TİMS) şöbəsi tərəfindən həyata keçirilib. TİMS məktəblərə bütün məlumat bazalarını avtomatlaşdırmağa imkan verir. Məlumatda bildirilib ki, elektron məlumat bazasının formalaşdırılması informasiya axınının birbaşa məktəbdən Təhsil Nazirliyinə daxil olmasına şərait yaradacaq.

**S.QARAYEVA**

# Məcburi köçkün mənzilindən niyə çıxarılır?

Bu günlərdə redaksiyamıza Fizuli Təhməzov tərəfindən şikayət məktubu daxil olub. Laçın məcburi köçkünü olan F.Təhməzov 1993-cü ildən bəri məskunlaşdığı mənzildən çıxarılmaq təhlükəsi ilə qarşı-qarşıya qaldığından söz açaraq bütün bu halın dövlət siyasətinə zidd olduğunu bildirib. Aidiyyəti qurumların məsələyə biganə yanaşmamasını istəyən şikayətçi bunları söyləyib: "Biz 1992-ci ildən Laçın rayonundan məcburi köçkün düşmüşük. İşğal nəticəsində Bakıya gələrək 1993-cü ildən etibarən Yeni Yasamal 1, bina 13, mənzil 8-də məskunlaşmışıq. Biz həmin binada məskunlaşan zaman bu tikilinin yalnız bünövrəsi qoyulmuşdu. Binanın bünövrəsindən başqa bütün tikinti işlərini özümüz həyata keçirərək burada özümüzə mənzil formalaşdırmışıq. Mənzilin təmirini də özüm etmişəm. Komunal xidmətlərin — işıq pulunun, qaz pulunun, su pulunun ödənişini təsdiq edən bütün sənədlərin hamısı mənim adımadır. Lakin indi heç tanımadığım, görmədiyim bir nəfər bizi bu mənzildən çıxarmaq istəyir".

Bunun yolverilməz hal olduğunu diqqətə çatdıran şikayətçi belə bir istəyin dövlət başçısının fərmanlarına da zidd olduğunu deyib: "Məlum olduğu kimi, ulu öndər Heydər Əliyevin qeyri-qanuni məskunlaşan qaçqınlarla bağlı fərmanı var. Ulu öndər qaçqın və məcburi köçkünlərin evlə təmin edilmədən və ya torpaqlar azad edilmədən məskunlaşdığı mənzildən çıxarılmasının yolverilməz olduğunu bəyan edib. Bu fərmanı daha sonra dövlət başçısı İlham Əliyev də yenidən təsdiq edib. Təəssüf ki, bəzi şəxslər bu fərmanları qulaq ardına vururlar. Odur ki, Əhmədov İbrahim adlı bir şəxs yaşadığımız evin özünün olduğunu iddia edərək bu mənzin orderinin öz adına olduğunu deyir. O, Yasamal Rayon Məhkəməsinə müraciət edərək bizi bu mənzildən çıxarmaqla bağlı iddia da qaldırıb. Artıq bir məhkəmə prosesi olub və qarşı tərəf məhkəməyə gəlməyib. Bu gün (dünən — A.Lətifov) isə növbəti proses olacaq. Onun iddiasına görə, evini təmirə dayandırılmış və bir qapını sındıraraq o mənzilə daxil olaraq, burada məskunlaşmışıq. Amma bu, düzgün deyil. Maraqlıdır ki, 20 il müddətində bu adam harada idi ki, indi gəlib deyir, "bu mənzil mənimdir və oradan çıxmalısınız". Heç o, özü bu ünvanı, hətta bizi də tanımır. Bəs bir 7 nəfərlik ailə bu evdən çıxarılsaq, harada məskunlaşacağıq? Bu həm də yuxarıda qeyd etdiyim kimi, dövlət başçısının fərmanına ziddir. Çünki nə evlə təmin edilmişik, nə də torpaqlarımız azad edilib. Təbii ki, torpaqlarımız qayıtsa və ya evlə təmin edilsək bu evdə qalası deyilik".

F.Təhməzov bu mənzilə orderin hansı yolla verilməsinin də müəmmalı olduğunu söyləyib: "Axı biz bu mənzildə yaşayırıqsa, digər şəxsə necə order verilə bilər? Hər halda bu zaman o mənzilə baxılmalı, oradakı vəziyyət araşdırılmalı idi. Fikrimcə, 19 nömrəli mənzil istismar idarəsinin də bu işdə əli var. Çünki bu idarə həmin şəxsə forma 2 nömrəli sənəd verib. Hesab edirəm ki, həmin mənzil istismar idarəsinin rəisi hansısa maraqlar naminə bizə qarşı məhkəmə iddiası qaldıran şəxsə istiqamət verib. Əks təqdirdə bizim məskunlaşdığımız mənzilə qeyri-qanuni sənəd verilməzdi. Bununla yanaşı, həmin mənzil istismar idarəsi, eləcə də iddiaçı şəxsə mənzilin sənədlərini verən dövlət idarələri də cənab prezidentin fərmanına zidd hərəkət ediblər".

Qeyd edək ki, dünən Yasamal Rayon Məhkəməsində hakim Şeyda Məhərrəmovanın sədrliyi ilə keçirilməsi planlaşdırılan prosesə iddiaçı tərəf gəlməyib. Və iddiaçı tərəfin ikinci dəfədir ki, prosesə gəlmədiyi əsas götürən məhkəmə iddianı baxılmamış hesab edib.

**AQİL**

# Mehriban Əliyeva Litva səfiri ilə görüşüb

İyulun 10-da Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Litvanın ölkəmizdəki səfiri Kestutis Kudzmanas ilə görüşüb. APA-nın məlumatına görə, səfir Kestutis Kudzmanası Heydər Əliyev Fondunda salamlayan Mehriban Əliyeva Azərbaycan ilə Litva arasında ikitərəfli münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib. Azərbaycanın birinci xanımı ölkəmizdə diplomatik fəaliyyət müddəti başa çatan litvalı səfirə gələcək işlərində uğurlar arzulayıb. Heydər Əliyev Fondu ilə səmərəli əməkdaşlığa görə diplomata təşəkkürünü bildirən Mehriban Əliyeva ölkələrimiz arasında həyata keçirilən layihələrin davam etdiriləcəyinə ümidvar olduğunu bildirərək deyib: "Əminəm ki, bizim əməkdaşlıq təcrübəmiz dost dövlətlərin münasibətləri necə qurmasına nümunədir".

Səfir Kestutis Kudzmanas Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən mühüm layihələri yüksək qiymətləndirib. Diplomat Azərbaycanda səfir kimi fəaliyyət göstərdiyi müddətdə Heydər Əliyev Fondu ilə Litvanın Azərbaycandakı səfirliyi arasında humanitar sahədə əməkdaşlığa dair imzalanan Anlaşma Memorandumu çərçivəsində görülən işlərdən, birgə uğurlu layihələrdən danışdı və bu layihələrin bundan sonra da davam etdiriləcəyini bildirib.

# *Mübariz Qurbanlı:* "YAP fəaliyyətində gənclərə əhəmiyyət verir"



Yeni Azərbaycan Partiyası (YAP) öz fəaliyyətində gənclərə xüsusi əhəmiyyət verir.YAP-ın gənclər siyasətində mühüm yer tutan məqamlardan biri ondan ibarətdir ki, partiyanın üzvü olan hər bir gənc öz fəaliyyəti üçün geniş imkanlara malik olsunlar, eyni zamanda, gənclərimiz YAP-ın sıralarında fəaliyyət göstərməklə siyasi fəallığını daha da artıra bilsinlər.Bu fikirləri hakim partiyanın saytına açıqlamasında YAP icra katibinin müavini Mübariz Qurbanlı deyib. M.Qurbanlı bildirib ki, gənclərin inkişafı üçün partiya tərəfindən ardıcıl olaraq müəyyən proqramlar və layihələr həyata keçirilir. YAP-ın gənclərlə çoxşaxəli iş apardığını deyən M.Qurbanlının sözlərinə görə, partiya gənc liderlərin yetişməsinə xüsusi əhəmiyyət verir: "YAP üzvləri içərisində gənclər xüsusi yer tutur və onlar Azərbaycan gəncliyinin avanqard hissəsidir. Partiyamızın gəncləri bütün sahələrdə özlərini təsdiq ediblər. Siyasi liderlik təcrübəsini əldə edən gənclər ictimai-siyasi proseslərdə aktiv iştirak edir, Heydər Əliyev ideyalarını, Prezident İlham Əliyevin siyasətini fəal şəkildə təbliğ edirlər. Gənclərlə iş sahəsində mühüm layihələrdən biri olan "Yay məktəbi" də böyük önəm kəsb edir. Bu layihənin məqsəd və məramı yalnız gənclərin istirahətini təşkil etmək demək deyil, eyni zamanda, onların siyasi biliklərinin və fəallığının artırılmasına yönəlib. Biz bu il 600 nəfərdən çox gəncin istirahətin təşkili ilə bağlı proqram həyata keçirməkdəyik və bu proqram neçə illərdir davam edir. Bu ilki layihə çərçivəsində də bir sıra görüşlər, seminarlar, mühazirələr təşkil edilir. Nümunə kimi deyə bilərəm ki, iyulun 5-də Lerik rayonunda gənclərlə böyük görüş keçirilib və görüşdə millət vəkilləri iştirak ediblər. YAP Sədrinin müavini Əli Əhmədov həmin gün gənclərə "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası ilə bağlı geniş mühazirə oxuyub". Yay məktəblərində gənclər arasında diskusiyaların davam etdiyini deyən M.Qurbanlının bildirdiyinə görə, bu layihə çərçivəsində gənclər həm istirahət edir, həm də siyasi biliklərini artırırlar, gənclər həmçinin müxtəlif xarakterli tədbirlər keçirir, idman yarışlarından başlamış intellektual yarışlara qədər tədbirlər rellaşdırılır: "Layihədə iştirak edən gənclər Azərbaycanın müxtəlif bölgələrini təmsil edlirlər. Onlar belə tədbirlərdə iştirak etməklə həm də digər bölgələrin inkişaf prosesi ilə yaxından tanış olurlar. Ümumiyyətlə, bu layihə çox faydalıdır və bundan sonra da davamlı olacaq. "Yay məktəbi" ənənəvi xarakter daşıyır və bu layihənin gənclər üçün çox böyük ictimai-siyasi əhəmiyyəti var".

**KAMİL**

# *Musa Quliyev:* "Ölkənin hər yerində eyni dərmanlar bir qiymətə satılmalıdır"



"Azərbaycanda dərman preparatlarının qiyməti dövlət tərəfindən tənzimlənməlidir. Səhiyyə Nazirliyi ilə İqtisadi İnkişaf Nazirliyi birgə qiymət siyasəti müəyyənləşdirməlidir ki, ölkənin hər yerində eyni dərmanlar bir qiymətə satılsın". Bu təklifi APA-ya açıqlamasında Milli Məclisin Sosial Siyasət Komissiyasının sədr müavini Musa Quliyev səsləndirib. Onun sözlərinə görə, Azərbaycanda satılan dərmanların 98 faizi idxal olunan məhsullardır. Ona görə də onların qiymətlərini tənzimləmək çətin olsa da, mümkündür. Bu, dərmanların qiymətlərinin ucuzlaşmasına səbəb ola bilər.

M.Quliyev deyib ki, dərmanların qiymətlərinin tənzimlənməsi ilə bağlı digər yol isə dərmanların pərakəndə satışına tətbiq olunan əlavə dəyər vergisinin (ƏDV) azaldılması, ya da tamamilə götürülməsidir: "Bütün dünya ölkələrində dərmanlara əlavə dəyər vergisi ya tətbiq olunmur, ya da ölkə üzrə ümumi əlavə dəyər vergisinin 50 faizindən aşağı məbləğdə tətbiq olunur. Çünki dövlətin büdcəsini xəstə vətəndaşının hesabına doldurması müəyyən qədər mənəviyyat baxımından doğru hesab olunmur. Yəni, dərman hesabına dolan büdcə yenidən xəstə vətəndaşa xərclənirsə, bunun bur mənası yoxdur. Ona görə də bu qiymətlərin tənzimlənməsi vacibdir".

M.Quliyev deyib ki, Azərbaycanda dərmanların topdansatış qiymətlərində əlavə dəyər vergisi götürülüb: "Amma pərakəndə satışda bu vergi qalır. Apteklərdə satılan dərmanlara 18 faiz əlavə dəyər vergisi qoyulur və vətəndaşlara satılır. Topdansatışla yanaşı, pərakəndə satış da əlavə dəyər vergisindən azad olunmalıdır".

Bununla bağlı Vergi Məcəlləsində müvafiq dəyişikliklərin edilməsini zəruri hesab edən M. Quliyev onu da bildirib ki, o, bu məsələni Milli Məclisin payız sessiyasında aparılacaq büdcə müzakirəsi zamanı da qaldıracaq.

# Bakıda iki polis bıçaqlandı

Bakıda polis əməkdaşının bıçaqlanmasının təfərrüatları məlum olub. Yasamal Rayon Polis İdarəsindən APA-ya verilən məlumata görə, hadisə əməliyyat zamanı baş verib. Srağagün Yasamal rayon sakini Məmmədağa Abbasov polisə zəng edərək atası Hafiz Abbasovun içkili vəziyyətdə qonşuları ilə dava etməsi barədə məlumat verib. Dərhal hadisə yerinə Yasamal Rayon Polis İdarəsinin 29-cu Polis Bölməsinin əməkdaşlarından ibarət əməliyyat qrupu gedib. Əməliyyat qrupuna Polis Bölməsinin əməliyyat müvəkkili, 37 yaşlı Emin İdris oğlu Məmmədov rəhbərlik edib. H. Abbasov polislərə müqavimət göstərib və E. Məmmədovu bıçaqlayıb. Daha sonra isə hadisə yerindən qaçıb. Yaralı polis zabiti ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib.

Həyata keçirilən tədbirlər nəticəsində polis zabitini bıçaqlayaraq hadisə yerindən qaçan H. Abbasovun yeri müəyyənləşib. Onun tutulması üçün həmin ünvana yenidən əməliyyat qrupu göndərilib. H. Abbasov bu dəfə də polis əməkdaşlarına müqavimət göstərib və daha bir polis əməkdaşını — polis serjantı Yusif Rzayevi bıçaqlayıb. Ayağından xəsarət alan Y. Rzayev xəstəxanaya yerləşdirilib.

H. Abbasov yenidən qaçmağa cəhd etsə də, mümkün olmayıb. O, zərərsizləşdirilərək Yasamal Rayon Polis İdarəsinə gətirilib.

# Məktəblilərin tətil günləri açıqlandı

Azərbaycanda 2012-2013 tədris ilində məktəblilərin tətil günləri açıqlanıb. APA-nın Təhsil Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, dərs məşğələləri sentyabrın 15-də başlayıb mayın 31-də başa çatacaq. Dərs ili iki yarımilə bölünəcək. Birinci yarımil 15 sentyabr — 29 dekabr, ikinci yarımil isə 6 yanvar — 31 may tarixlərini əhatə edəcək. Dərs ili ərzində şagirdlər üçün payız tətili 12-17 noyabr (6 gün), qış tətili 30 dekabr — 5 yanvar (7 gün), yaz tətili 17-24 mart (8 gün) tarixlərini əhatə edəcək. I (birinci) sinif şagirdləri üçün əlavə tətil günləri 12-17 fevral (6 gün) tarixlərində olacaq.

# Elmlər Akademiyası əhaliyə müraciət edib

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) əhaliyə müraciət edib. APA-nın məlumatına görə, Ağsu rayonu ərazisində tapılan qədim dəfinə ilə bağlı keçirilən brifinqdə AMEA-nın vitse-prezidenti, Azərbaycan Tarixi Muzeyinin direktoru Nailə Vəlixanlı arxeoloji tapıntı ilə rastlaşan əhalini onları dərhal Azərbaycan Tarixi Muzeyinə və digər muzeylərə təhvil verməyə çağırıb. N. Vəlixanlı bildirib ki, bəzən tapıntılar aşkarlanarkən əhali onu muzeyə təqdim etməkdə maraqlı olmur: "Tapdığınız arxeoloji materialları gətirib gəlin. Çünki bu, bizim tariximizdir. Ağdaşda məktəb tikintisi aparılarkən çar Nikolay dövrünə aid rus pulları tapılıb. Bizə verilən məlumata görə, guya həmin pullar Azərbaycan Tarixi Muzeyinə təhvil verilib. Bunu araşdırmaq üçün Ağdaş rayon İcra Hakimiyyəti ilə əlaqə saxladım. Oradan bildirdilər ki, pulları məktəbdə işləyən fəhlələr tapıblar və onu öz aralarında bölüşdürüblər. Fəhlələrdən yalnız ikisi pulları götürdüklərini etiraf ediblər. Həmin pullardan 10-u qaytarılıb. Mən bir neçə dəfə müraciət edib bildirmişəm ki, hər bir rayonun İcra Hakimiyyəti başçısı, ziyalıları maarifləndirmə işləri aparmalıdırlar".

AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Ağsu Arxeoloji Ekspedisiyasının rəhbəri Qafar Cəbiyev isə deyib ki, indiyədək arxeoloji qazıntılar yalnız elmə xidmət etmək məqsədilə aparılıbsa, bundan sonra bu iş həm də turizmi inkişaf etdirmək məqsədilə həyata keçirilməlidir: "Arxeoloji tapıntıların aşkarlandığı ərazi konservasiya yerlərinə çevrilməlidir".

# Azərbaycanın bəzi çaylarında suyun səviyyəsi artıb

Son üç gün ərzində Azərbaycanın Zərdab rayonu ərazisində Kür çayına tökülən Qarasu çayında suyun səviyyəsi 1 metr 11 santimetr artıb. Bu artım Kür çayının aşağı axınında da suyun səviyyəsinə təsir edib, nəticədə çayın həmin hissəsində suyun səviyyəsi yüksəlib. Bu barədə APA-ya Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin Hidrometeoroloji Proqnozlar Bürosunun baş hidroloqu Asif Verdiyev bildirib. Onun sözlərinə görə, yağan yağışlarla əlaqədar Kürün Zərdab rayonu ərazisindən keçən hissəsində suyun səviyyəsində 37, Kürün aşağı axınında, Surra məntəqəsində 33, Şirvanda isə 21 santimetr artım qeydə alınıb: "Dünən axşam və bu gün səhər ən çox yağış Azərbaycanın qərb bölgəsində qeydə alınıb. Göyçay çayında və Türyançayda suyun səviyyəsi artıb. Qarasu çayı həmin çayların birləşməsindən əmələ gəlir və Kürə tökülür. Qarasu çayında suyun səviyyəsinin artması Kür çayının aşağı axınına təsir etsə də, bu, Kür üçün təhlükəli deyil. Çünki hazırda ümumiyyətlə, Kürdə suyun səviyyəsi aşağıdır".

Azərbaycanın heç bir çayında daşqın və sellərin müşahidə edilmədiyini deyən A. Verdiyev ölkə ərazisində proqnozlaşdırılan yağışlarla əlaqədar olaraq bəzi çaylardan qısamüddətli daşqın və sellərin keçəcəyini istisna etməyib.

# "Meksika Azərbaycanın Latın Amerikasındakı nümayəndəsidir"

***MEKSİKA SENATININ AŞAĞI PALATASININ SƏDR MÜAVİNİ:*** "MEKSİKA AZƏRBAYCANLA ƏMƏKDAŞLIQDA MARAQLIDIR, AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜ DƏSTƏKLƏYİR"

"Meksika Azərbaycanla əməkdaşlıda maraqlıdır, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və buna davam edəcək. Meksika Azərbaycanı Latın Amerikasında həmişə müdafiə edib. Biz Azərbaycanın Latın Amerikasındakı nümayəndəsi olaraq Azərbaycanın atdığı bütün addımları müdafiə edəcəyik". APA-nın xəbərinə görə, bunu Azərbaycanda səfərdə olan Meksika Senatının Aşağı Palatasının sədr müavini Fransisko Arroyo Vieyra deyib. O bildirib ki, Meksika Azərbaycanla bir sıra, o cümlədən neft-qaz sahəsində əməkdaşlıqdan bəhrələnmək, tələbələrinin Azərbaycanda bu sahədə təcrübə keçmələrini istəyir. Fransisko Arroyo Vieyra qeyd edib ki, Meksika Latın Amerikasında həmişə Azərbaycanın arxasında dayanacaq: "Biz bütün beynəlxalq təşkilatlarda bir yerdə çalışacağıq".

Azərbaycanın iş adamları ilə də münasibətlərin çox yaxşı olacağını düşünən vitse-spiker Azərbaycan iş adamlarının Meksikaya görüşə gələcəklərinə ümid etdiyini açıqlayıb.

O, həmçinin yaxın vaxtlarda Meksikanın Azərbaycanda səfirliyinin açılacağını, bunun iki ölkə arasında əlaqələrin inkişafına təkan verəcəyini deyib: "Mən parlamentimiz adından deyə bilərəm ki, regionun ən inkişaf etmiş və güclü ölkəsi olaraq bizim burada səfirlik açmağımız çox vacibdir". Fransisko Arroyo Vieyra rəhbərlik etdiyi nümayəndə heyətinə Meksikanın biri müxalifət olmaqla, iki partiyasından olan senatorların daxil olduğunu deyib.

Vitse-spiker Mexikonun böyük meydanlarından birində Heydər Əliyevin abidəsinin qoyulmasının nəzərdə tutulduğunu da söyləyib: "Düşünürəm ki, bu abidənin qoyulması bizim münasibətlərimiz və əlaqələrimiz üçün önəmlidir".

Qeyd edək ki, Fransisko Arroyo Vieyra rəhbərlik etdiyi nümayəndə heyəti Fəxri xiyabanda Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

# Suraxanı rayonunun sosial–iqtisadi inkişafına həsr olunmuş tədbir keçirilib

Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzi (BMAM) Azərbaycan Respublikasının Prezidenti yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Bakıətrafı qəsəbələrdə sosial proqramların icrasının monitorinqi və təbliği" layihəsi çərçivəsində Suraxanı rayonunda regionların sosial-iqtisadi inkişafına həsr olunmuş tədbir keçirib. Tədbirdə rayon rəhbərliyi, ictimaiyyətin nümayəndələri, idarə, müəssisə rəhbərləri, vətəndaş cəmiyyətinin təmsilçiləri iştirak ediblər. "Sosial-iqtisadi inkişafın əhəmiyyəti və bu proqramın icrasının vətəndaşların sosial problemlərinin həllində rolu" mövzusunda keçirilən tədbiri Suraxanı rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov açaraq, rayonda görülən işlərlə bağlı məlumat verib. O, bildirib ki, Suraxanı rayonunda Dövlət Proqramının icrası vaxtında və qrafikə uyğun yerinə yetirilir. İcra başçısının 1-ci müavini Hüseyn Həsənov Dövlət Proqramı çərçivəsində görülən işlərlə bağlı geniş məruzə ilə çıxış edib.

Daha sonra BMAM-ın sədri və layihənin rəhbəri Rufiz Qonaqov layihənin əhəmiyyəti, layihəini icra planına uyğun aparılan monitorinqin əhəmiyyəti və bu monitorinqin Proqramın icrasındakı rolundan danışıb. O, bildirib ki, ölkədə regionların sosial-iqtisadi inkişafı kompleks şəkildə həyata keçirilir: "Suraxanı rayonu da o rayonlardan biridir. Monitorinq zamanı biz bir daha şahid olduq ki, Suraxanı rayonu günü-gündən inkişaf edir. Bu proqramın icrası rayonda həm də işsizliyin aradan qaldırılmasında əhəmiyyətlidir. Olduğumuz qəsəbələrdə, yaşayış massivlərində əhali bu proqramın icrasından razıdır və bu proqramın həm də işsizliyin aradan qaldırılmasındakı əhəmiyyətini xüsusi qeyd edirlər. Biz Suraxanı rayonunda görülən işləri yüksək qiymətləndiririk. Monitorinqin nəticələri ilə bağlı hazırlanmış hesabat təşkilatımızın layihə çərçivəsində "Facebook" sosial şəbəkəsində yaratdığı İnkişaf Qrupunda yerləşdiriləcək. Hesabatın bu qrupda yerləşdirilməsində də məsədimiz ictimaiyyətin görülən işlərlə bağlı daha geniş məlumatlandırılmasıdır. Eyni zamanda bununla həm də proqramın icrasının təbliğatı aparılır".

Daha sonra layihə çərçivəsində layihənin məqsədlərinə uyğun olaraq, görülən işlərin monitorinqi ilə bağlı Monitorinq Qrupunun üzvü, layihənin eksperti Nailə İsmayılova məruzə edib. O, tədbir iştirakçılarına monitorinqin nəticələri və ayrı-ayrı sahələrdə görülən işlərlə bağlı məlumat verib. Tədbirdə iştirak edən İqtisadi İnkişaf Nazirliyinin şöbə müdiri Fərhad Dadaşov da nazirliyin apardığı monitorinlə bağlı çıxış edib. O, bildirib ki, nazirlik də bu işlərin icrasını daim diqqətdə saxlayır. İclasda çıxış edən "Azərsu" ASC-nin sədr müavini S.Seyidov Dövlət Proqramı çərçivəsində Suraxanı rayonunun su təchizatının yaxşılaşdırılması ilə bağlı görülən işlərlə bağlı məlumat verib.

**Aqil LƏTİFOV**

# *Fərhad Məmmədov:* "...Gənclər siyasətinin sonu yoxdur"

SAM-DA "AZƏRBAYCANIN GƏNCLƏR SİYASƏTİ" KİTABININ TƏQDİMATI OLUB

"İrəli" İctimai Birliyi öz fəaliyyətində gənclərin maariflənməsinə, onların ölkə həyatında baş verən ictimai-siyasi proseslərə cəlb olunmasına böyük əhəmiyyət verir. Gənclərin maariflənməsi istiqamətində fəaliyyətimizdən biri də məhz ən müxtəlif məsələlərlə bağlı kitabların yazılıb, hazırlanıb geniş auditoriyaya çatdırılmasıdır". Bu fikirləri iyulun 11-də Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzində (SAM) "İrəli" İctimai Birliyinin fəalı, gənc yazar Toğrul Əliyevin "Azərbaycanın gənclər siyasəti" adlı kitabının təqdimetmə mərasimində çıxışı zamanı sözügedən birliyin sədri Rauf Mərdiyev bildirib. R.Mərdiyevin qeyd etdiyinə görə, Azərbaycanda son illər gənclərlə bağlı uğurlu dövlət siyasəti həyata keçirilir və keçirilməkdədir. O bildirib ki, həyata keçirilən dövlət gənclər siyasəti ilə bağlı çox dinamik inkişaf müşahidə olunmaqdadır: "Bu sırada dövlət tərəfindən gənclərin dəstəklənməsi, onlarla bağlı layihələrin həyata keçirilməsi, Gənclər Fondunun yaradılması və s. məqamları qeyd etmək yerinə düşər. Heç şübhəsiz ki, həyata keçirilən dövlət gənclər siyasəti biz gəncləri sevindirməklə yanaşı, həm də bizim məsuliyyətimizi daha da artırır. Çünki biz gənclərin üzərinə Azərbaycanın gələcək inkişafı ilə bağlı çox böyük vəzifələr düşür. Qeyd etdiyim kimi, öz fəaliyyətində kitabların hazırlanmasına, nəşrinə böyük önəm verən bir təşkilat olaraq, bu gün daha bir fəalımızın — Tural Əliyevin "Azərbaycanın gənclər siyasəti" adlı kitabının təqdimat mərasiminə yığışmışıq".

Tədbirdə iştirak edən millət vəkili İlham Məmmədov çıxışında bildirib ki, bu gün Azərbaycan gəncliyi çox irəlidədir: "Azərbaycan gəncliyindən çox şey öyrənmək olar və öyrənirik də. Bu gün biz gənclərimizdən birinin kitabının təqdimat mərasiminə yığışmışıq. Bəlkə də ola bilsin, tədbir başlanana kimi hamımız belə düşünürdük ki, adi bir kitab təqdimatına dəvət olunmuşuq və ona görə də həmin dəvəti nəzərə alıb orada iştirak etməliyik. Ancaq bu kitabla tanış olandan sonra elə bilirəm ki, hər birimizdə bu təsəvvür aradan qalxmış oldu. Bu kitab olduqca maraqlı, dövlət gənclər siyasəti, bu yöndə formalaşan qanunvericilik bazasını özündə əks edən vahid topludur. Bu kitabdan gələcəkdə çox rahatlıqla gənclər siyasəti ilə bağlı bizi maraqlandıran çox mühüm məsələlərlə tanış olmaq olar".

"Azərbaycanın dövlət gənclər siyasəti geniş və çoxşaxəlidir". Bu fikri isə SAM-ın rəhbəri Fərhad Məmmədov çıxışı zamanı dilə gətirib. Bir il ərzində İdman və Gənclər Nazirliyində çalışdığını, beş il isə gənclər hərəkatında yaxından iştirak etdiyini xatırladan F.Məmmədov bu dövr ərzində Azərbaycanın dövlət gənclər siyasətinin sonu olmadığı qənaətinə gəldiyini vurğulayıb: "Bir şeyi başa düşdüm ki, Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasəti daimidir, onun sonu yoxdur. Bu siyasət hər zaman təkmilləşən, dövrün reallıqlarını və müsbət məqamlarını əks etdirərək dəyişən bir siyasətdir. Bir çox dövlətlərdə gənclər siyasəti ilə yalnız hansısa nazirlik tərkibindəki bir şöbə məşğul olur, yaxud da ən uzağı bu siyasətlə məşğul olan hansısa bir dövlət qurumu, nazirlik fəaliyyət göstərir. Ancaq Azərbaycan yeganə dövlətdir ki, burada gənclər siyasətini təhlil edərkən və bu siyasəti həyata keçirən strukturları müəyyən edərkən görürsən ki, burada gənclər siyasəti ilə təkcə bir nazirlik deyil, çox sayda digər dövlət strukturları da yaxından məşğul olurlar. Onlar dövlət tərəfindən həyata keçirilən gənclər siyasətinin uğurla reallaşdırılmasına öz dəstəklərini verirlər". F.Məmmədov çıxışı zamanı ölkədə həyata keçirilən uğurlu dövlət gənclər siyasətinin nəticəsi olaraq, son zamanlar Azərbaycanda böyük gənclər hərəkatının formalaşdığını, bu yöndə nüfuzlu qeyri-hökumət təşkilatlarının, ictimai birliklərin fəaliyyət göstərdiyini də qeyd edib: "Hesab edirəm ki, gənclər təşkilatları heç də yerlərində saymamalıdırlar, heç də bir sədrdən və bir neçə üzvdən ibarət olmamaldırlar. Onlar daha da güclənməli və fəaliyyət istiqamətlərini daha da artırmalıdırlar. Azərbaycanın inkişafında gənclər hərəkatının inkişafına böyük önəm verən Azərbaycan dövləti və hakimiyyəti isə hər zaman olduğu kimi, bundan sonra da gəncləri dəstəkləməkdə davam edəcək".

**Kamil HƏMZƏOĞLU**

# *Aydın Mirzəzadə:* " Nədən Arif Hacılı, Fuad Qəhrəmanlı və ya Əvəz Temirxan prezidentliyə namizəd olmasın?"



"Nəyə görə bu gün "Müsavat"dan Arif Hacılı, AXCP-dən Fuad Qəhrəmanlı, ALP-dən Əvəz Temirxan prezidentliyə namizəd olmasın? Nədən belə hesab edilir ki, Müsavat Partiyasını artıq 20 ildən çoxdur bu partiyanın liderliyindən getmək istəməyən İsa Qəmbər prezident seçkilərində namizəd kimi təmsil etməlidir?". Bu fikirləri mətbuata açıqlamasında hakim partiyadan olan millət vəkili, politoloq Aydın Mirzəzadə Müsavat Partiyasından İsa Qəmbərin, AXCP-dən Əli Kərimlinin, ALP-dən Lalə Şövkətin, ACP-dən isə Rəsul Quliyevin qarşıdan gələn 2013-cü il prezident seçkilərində müxalifətin vahid namizədi kimi təqdim olunmasına münasibətini bildirərkən dilə gətirib. Hakim partiya təmsilçisi iddia edib ki, əgər növbəti seçkilərə də müxalifət bu şəxslərlə gedərsə və ya adıçəkilən 4 namizəddən hər hansı biri müxalifətin vahid namizədi kimi seçki prosesinə qatılarsa, həmin düşərgə yenə əvvəlki uğursuzluğunu təkrarlamış olacaq. "Məgər Müsavat Partiyasında hətta, onun öz ideologiyasının daşıyıcısı olan insanlar azdırmı? Arif Hacılı öz fəaliyyəti ilə, eləcə də İsa Qəmbərdən fərqli olaraq həyatının böyük bir hissəsini zindanlarda keçirməsi ilə Müsavat Partiyasının lideri və prezidentliyə namizəd olması haqqını qazanmayıbmı? Məgər Əli Kərimliyə görə həbsdə yatan, bu gün özünün müxalifətçilik mübarizliyi ilə müxalifət kəsimində yerini tutan Fuad Qəhrəmanlı həmin təşkilatın prezidentliyə namizədi ola bilməzmi? Mən belə hesab edirəm ki, müxalifətin uğursuzluğunun çoxlu səbəblərindən biri də məhz bir neçə şəxsin müxalifət liderliyi postunu monopoliyada saxlamasındadır. Öz yerini heç cürə başqasına vermək istəməməsindədir. Gəncləri, yeni yetişən insanları qabağa vermək niyyətində olmamasındadır. Bu baxımdan da birmənalı olaraq bildirim ki, həmin adamlar eyni texnologiya, eyni düşüncə ilə 2013-cü ildə yenidən eyni "nəticəni" qazanacaqlar"- deyə, millət vəkili sonra sözlərinə əlavə edib.

**Kamil HƏMZƏOĞLU**

# *Bakir İzetbeqoviç:* "Azərbaycanla heç bir problemimiz yoxdur"

## BOSNİYA VƏ HERSEQOVİNANIN PREZİDENTİ OKTYABRDA AZƏRBAYCANA RƏSMİ SƏFƏR EDƏCƏK

Bosniya və Hersoqovinada səfərdə olan millət vəkili, Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutunun sədri Qənirə Paşayeva Sarayevoda Bosniya və Hersoqovinanın prezidenti Bakir İzetbeqoviç ilə görüşüb. Azərbaycanı sevdiyini deyən Bosniya və Hersoqovina prezidenti Bakir İzetbeqoviç iki qardaş ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi istiqamətində böyük potensialın olduğunu vurğulayıb. Azərbaycanla iqtisadi, turizm, enerji, təhsil, mədəniyyət, bir sözlə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiklərini deyən prezident Bakir İzetbeqoviç oktyabr ayında dost Azərbaycana rəsmi səfər edəcəyini deyib. O bildirib ki, bu səfərdən və Azərbaycan Prezidenti İlham Əliyevlə görüşlərdən sonra iki ölkə arasında əməkdaşlığın daha da sürətlə inkişaf edəcəyinə inanır. "Bizim aramızda heç bir siyasi problemlər yoxdur və bu iki dost ölkə arasında əməkdaşlığın bundan sonra daha da sürətlənməsi üçün daha çox işlər görüləcək"- deyən prezident Bakir İzetbeqoviç Azərbaycanın getdikcə daha da inkişafına dost ölkə olaraq sevindiklərini deyib və əlavə edib ki, Azərbaycan sərmayələrinin və iş adamlarının Bosniya və Hersoqovinaya gəlməsində maraqlıdırlar.

Millət vəkili Qənirə Paşayeva Bosniya və Hersoqovinanın prezidenti Bakir İzetbeqoviçə bu qədər mehriban və səmimi qəbula görə təşəkkür edərək bildirib ki, azərbaycanlılar üçün də Bosniya və Hersoqovina dost, qardaş ölkədir.

Azərbaycanın Bosniya və Hersoqovina ilə bütün sahələrdə əməkdaşlığın daha da inkişafına önəm verdiyini deyən millət vəkili Qənirə Paşayeva parlamentlərarası əməkdaşlığın daha da genişlənməsinə ehtiyac olduğunu bildirib. O deyib ki, iki ölkənin beynəlxalq təşkilatlardakı nümayəndə heyətləri arasında da əməkdaşlığın daha da genişlənməsi olduqca vacib və əhəmiyyətlidir. Bosniya və Hersoqovinanın prezidenti Bakir İzetbeqoviçi Azərbaycanda görməkdən bütün azərbaycanlıların məmnun olacağını deyən millət vəkili Azərbaycanla bağlı, ölkənin potensialı, imkanları, əldə etdiyi uğurlar, inkişafla bağlı prezidentə ətraflı məlumat verib. Millət vəkili Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında törətdiyi vandalizm aktlarından, 1 milyon azərbaycanlının Ermənistanın işğalı nəticəsində öz yurd-yuvalarından qaçqın və məcburi köçkün düşməsi, onların fundamental insan haqlarının bu gün də Ermənistan tərəfindən pozulmaqda davam etməsindən, rəsmi İrəvanın yüz minlərlə azərbaycanlı qaçqın və məcburi köçkünün 15 ildən artıqdır öz eveşiyinə dönməsinə imkan verməməsindən danışıb.

Xocalı soyqırımına toxunan millət vəkili bildirib ki, Azərbaycan xalqı soyqırıma məruz qalan Bosniyalı qardaşlarımızı hər kəsdən daha yaxşı anlayır. Bu gün Srebrenitsa soyqırımının anım günü olduğunu vurğulayan millət vəkili deyib ki, dünyanın harasında yaşamasından asılı olmayaraq bütün insanlar bu cür cinayətlərə laqeyd qalmamalı və buna qarşı öz etiraz səsini ucaltmalıdırlar.

Qeyd edək ki, millət vəkili Qənirə Paşayeva bu gün Srebrenitsa bölgəsində Srebrenitsa soyqırımı qurbanlarının anım tədbirlərində də iştirak edəcək.

**KAMİL**

# "Vəkil məsləhətləri toplusu" kitabı ictimaiyyətə təqdim olunub

Beynəlxalq Mətbuat Mərkəzində "Azərbaycan" qəzeti ilə "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin birgə təşəbbüsü ilə nəşr olunmuş "Vəkil məsləhətləri toplusu" kitabının təqdimat mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyinin nəticəsi olaraq işıq üzü görmüş bu nəşrin qayəsini əhalinin hüquqi maariflənməsi səviyyəsinin artırılması vasitəsilə onların məhkəmələr və digər dövlət orqanlarına çıxış imkanlarının asanlaşdırılması və müxtəlif vəziyyətlərdə hansı hüquqa uyğun davranışdan yararlanmalı olduqları təşkil edir. Kitabda "Azərbaycan" qəzetinin "Bakı Hüquq Mərkəzi oxucuların suallarına cavab verir" rubrikası çərçivəsində son üç il ərzində işıq üzü görən sual-cavablar toplanıb.

Təqdimat mərasimini giriş sözü ilə açan "Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-siyasi formasiyanın və demokratik cəmiyyətin formalaşdırılması, azad bazar iqtisadiyyatına keçid yeni qanunların qəbulunu tələb etdiyini vurğulayıb: "Çünki yeni cəmiyyət köhnə sovet qanunları ilə yaşaya bilməzdi. Bu mənada ulu öndər Heydər Əliyevin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də qəbul edilən Azərbaycan Respublikasının yeni Konstitusiyası həm də ölkəmizin yeni qanunvericiliyinin formalaşdırılması istiqamətində mühüm addım oldu. Yeni Konstitusiyanın əsasında müstəqil Azərbaycanın müasir standartlara cavab verən qanunları qəbul edildi. Artıq 2001-ci ildə Azərbaycan Avropa Şurasına tamhüquqlu üzv olduğu zaman Milli Məclis tərəfindən 1000-dən çox qanun və qərar qəbul olunub.

Təbii ki, qəbul edilən qanunların ictimaiyyətə çatdırılması, bu məqsədlə hüquqi maariflədirmə işinin aparılması və yüksək səviyyədə qurulması hər bir cəmiyyətdə vacib məsələlərdən biridir. Əvvəla, insanlar öz hüquqlarını bilməli və ondan düzgün istifadə etməlidir. Digər tərəfdən, əgər biz hüquqi cəmiyyət qururuqsa, insanlar qanunlara riayət etməlidirlər. Eyni zamanda, hüquqi maarifləndirmənin ən mühüm cəhətlərindən biri cəmiyyətdəki mənfi halların aradan qaldırılmasına yardımdır. Korrupsiya və rüşvətxorluğa qarşı mübarizənin ən mühüm tərəflərindən biri odur ki, vətəndaş öz hüququnu bilsin və tələb etsin. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2011-ci il dekabrın 27-də təsdiq etdiyi "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda da əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi məsələsi dəqiqliklə qeyd olunub".

"Azərbaycan Hüquq İslahatları Mərkəzi" İctimai Birliyinin sədri, vəkil, Hakimlərin Seçki Komitəsinin üzvü Anar Bağırov bildirib ki, son illərdə ölkəmizdə hər bir sahədə islahatlar həyata keçirilir: " Təbii ki, bu sırada məhkəmə-hüquq islahatları da beynəlxalq standartlara uyğun olaraq yüksək səviyyədə aparılır. Son dövrlərdə bölgələrdə yeni məhkəmələr yaradılıb, hakimlərin və vəkillərin sayı artıb, o cümlədən hüquq sahəsində beynəlxalq standartlara cavab verən normativ-hüquqi baza formalaşdırılıb". Birliyin sədri

sözügedən kitabın bir sıra təşkilatlara, xüsusən sadə vətəndaşlara pulsuz paylanıldığını, iki yüz nüsxə penitensiar müəssisələrə göndərildiyini deyib: "Biz kitabın çap versiyası ilə kifayətlənməyərək onun elektron versiyasını da hazırlayıb "Azərbaycan Hüquq İslahatları Mərkəzi"nin internet ünvanında və "Facebook"dakı səhifəsində yerləşdirmişik. Bu da hüquqi maarifləndirmə ilə bağlı informasiya texnologiyalarına müraciət edən vətəndaşlar üçün faydalı ola bilər. Bu mənada təqdimatına toplaşdığımız kitab vətəndaşlar üçün mayak funksiyasını yerinə yetirəcək".

Bakı Apelyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri Mehdi Əsədov çıxışında vurğulayıb ki, ölkəmizdə aparılan demokratik, o cümlədən məhkəmə hüquq islahatları, hüququn aliliyinin təmini yalnız bir məsələyə — insan amilinə xidmət edir.

Tədbirdə çıxış edən Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin rəisi, hüquq elmləri doktoru Fuad Cavadov belə bir nəşrin işıq üzü görməsini həm vətəndaşlar, həm də hüquq ictimaiyyəti üçün əhəmiyyətli addım kimi qiymətləndirib.

Bakı Dövlət Universitetinin kafedra müdiri, hüquq elmləri doktoru, professor Alış Qasımov çıxışında toplunun ərsəyə gətirilməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib: " Azərbaycan Konstitusiyasının 12-ci maddəsinə əsasən insan hüquq və azadlıqlarının, Azərbaycan Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətimizin əsas məqsədidir. Bu məqsədi həyata keçirmək üçün həm təkmil qanunlar qəbul edilməli, həm də həmin qanunların işlək mexanizmi olmalıdır. Lakin bəzən qanunlar arasında ziddiyyətlərin olması hər hansı normanın praktikada tətbiqinə müəyyən çətinliklər yaranır ki, bu da istər-istəməz insanlarda sual doğurur. Təbii ki, bu işdə hüquqşünasların üzərinə böyük məsuliyyət düşür".

Bakı Dövlət Universitetinin dosenti, vəkil Turqay Hüseynov bildirib ki, belə bir kitabın işıq üzü görməsi hüquq elmində yenilikdir: "Bu toplunun ərsəyə gəlməsi nəinki vətəndaşlar, həm də hər bir hüquqşünas, hakimlər və vəkillər üçün də faydalıdır. Bu kitab ən azından insanlar üçün yol göstəricisidir. İstənilən şəxs hüquqi məlumat almaq istəyirsə, kitabdan rahatlıqla istifadə edə bilər. Odur ki, belə bir kitabın işıq üzü görməsi yalnız müsbət qiymətləndirilməlidir".

**S.MÜRVƏTQIZI**

# Baş nazirin müavini BMT-ni təmsil edən nümayəndə heyəti ilə görüşüb

Baş nazirin müavini Əli Həsənov Yaponiyanın "Fuji Optical" şirkətinin rəhbəri, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının (QAK) "Nansen qaçqın mükafatı"na layiq görülmüş dünya şöhrətli optometrist doktor Akio Kanainin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb. Nazirlər Kabinetinin mətbuat xidmətindən "525"ə verilən məlumata görə, BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin təşkilati dəstəyi ilə həyata keçirilən bu humanitar missiyanın məqsədi, əvvəlki illərdə olduğu kimi, Azərbaycandakı qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə optometrik xidmət göstərilməsindən ibarətdir.

2006-cı ildən etibarən nümayəndələri hər il Azərbaycana səfər edən "Fuji Optical" şirkəti tərəfindən bu il ölkəmizə 4 min 500 eynək və digər vasitələr gətirilmişdir. İyulun 3-dən 9-dək davam edən missiya zamanı Tərtər, Goranboy, Sabunçu və Binəqədi rayonları ərazisində 2 min 227 nəfərə xidmət göstərilmiş, 1973 eynək paylanmışdır. Əlavə olaraq, ehtiyacı olan 100 nəfərə Yaponiyada xüsusi eynəklər hazırlanaraq göndəriləcək.

Ümumiyyətlə, 2005-ci ildən indiyədək şirkət Azərbaycandakı fəaliyyətinə 1 milyon ABŞ dollarından artıq vəsait xərcləyib. Otuz beş minədək yüksək keyfiyyətli optik eynək və digər vasitələr BMT QAK-ın Azərbaycandakı fəaliyyətinə dəstək kimi ölkəyə gətirilib, 14 mindən artıq qaçqın, məcburi köçkün və digər aztəminatlı şəxs şirkətin ödənişsiz göz müayinəsi xidmətindən faydalanıb.

Görüşdə doktor Akio Kanai Azərbaycanda son illər aparılan abadlıq-quruculuq işlərindən məmnun olduğunu vurğulayaraq missiyanın növbəti səfərinin uğurla həyata keçirilməsinə lazımi kömək göstərdiyinə görə, Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

Baş nazirin müavini Əli Həsənov Azərbaycandakı qaçqın, məcburi köçkün və aztəminatlı əhaliyə göstərilən təmənnasız optometrik xidmətə görə doktor Akio Kanaiyə və onun rəhbərlik etdiyi heyətə təşəkkürünü çatdırıb. Əli Həsənov BMT QAK-ın ölkəmizdəki nümayəndəliyinin xətti ilə bu humanitar missiyanın növbəti illərdə də davam etdiriləcəyinə əmin olduğunu bildirib, mötəbər "Nansen" mükafatına layiq görülmüş şəxs kimi doktor Akio Kanainin bu etimadı doğrultduğunu xüsusi vurğulayıb. Görüşdə BMT QAK-ın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Daq Siqurdson da iştirak edib.

**Sevinc MÜRVƏTQIZI**

# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər



Dahi Azərbaycan şairi Nizami Gəncəvinin adını daşıyan Nizami rayonu yaranma tarixinə görə paytaxtın gənc rayonlarındandır. Hələ Sovetlər Birliyi dönəmindən Azərbaycana rəhbərlik etmiş ümummilli lider Heydər Əliyevin hər zaman öz xalqının mənafeyini düşünərək həyata keçirdiyi siyasətin nəticəsi olaraq respublikanın digər rayonları ilə yanaşı, paytaxtın inkişafı da diqqət mərkəzində olub. Məhz həmin illər ərzində Bakıda ən böyük abadlıq işləri görülərək, ölkənin siyasi, mədəni həyatında böyük əhəmiyyət daşıyan bir sıra memarlıq nümunələri, inzibati binalar, saray, nəşriyyat, tədris mərkəzləri, idman kompleksləri və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə binalar tikilib istifadəyə verilib.

Əsası 1980-ci ilin noyabrında qoyulan Nizami rayonunun inkişafı da məhz ümummili lider Heydər Əliyevin hakimiyyəti illərinə təsadüf edir. Hazırda həm keçmişi, həm də müasirliyi özündə əks etdirən Bakının gözəl guşələrindən birinə çevrilən bu rayonun ərazisi 19,6 kvadratkilometr, əhalisi isə 184 min nəfərə yaxındır.

Nizami rayonu Nərimanov, Sabunçu, Suraxanı və Xətai rayonlarının inzibati əraziləri ilə əhatə olunub. Heydər Əliyev, Qara Qarayev və Babək prospektləri, son illərdə inşa olunmuş bir neçə müasir yolötürücü kompleksləri, eləcə də 4 metro stansiyası — "Koroğlu", "Qara Qarayev", "Neftçilər" və "Xalqlar dostluğu" məhz bu rayonun ərazisindədir. Bakının qədim yaşayış məntəqələrindən biri olan Keşlə qəsəbəsi də Nizami rayonunun ərazisinə daxildir. Ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Keşlə qəsəbəsində rayon icra hakimiyyətinin yerli icra nümayəndəliyi və bələdiyyəsi var. Eləcə də rayonun özündə Nizami bələdiyyəsi yerli özünüidarəetməni həyata keçirir.

Ölkəmizdə aparılan uğurlu daxili və xarici siyasət nəticəsində iqtisadi və sosial sahədə xeyli inkişafa nail olunub. Prezident İlham Əliyev tərəfindən respublikanın, eləcə də Bakı və ətraf rayonların sosial-iqtisadi inkişafı ilə bağlı Fərman və Sərəncamlar imzalanıb. Bundan başqa bir sıra dövlət proqramları və infrastruktur layihələrinin icrası uğurla davam etdirilib. Nizami rayonunda yenidənqurma işlərinin nəticəsi olaraq rayonun sənaye müəssisələrinin fəaliyyəti daha da canlanıb. Rayonun statistik göstəricilərinə əsasən bu ilin birinci rübündə sənaye sahəsi üzrə fəaliyyət göstərən müəssisələr tərəfindən 107,1 milyon manat dəyərində məhsul istehsal edilib və xidmətlər göstərilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz çoxdur. İstehsal olunmuş sənaye məhsulunun 34,1 faizi qeyri-dövlət sektoruna aiddir. Ayrı-ayrı istehsal sahələri üzrə ötən ilin müvafiq dövrünə nisbətən süd məhsulları istehsalı 0,5 faiz, qarğıdalı yağı istehsalı 49,4 faiz, marqarin istehsalı 64,0 faiz, bitki piyləri 24,8 faiz, günəbaxan yağları 75,4 faiz, kimyəvi məhsulların istehsalı 29,9 faiz, şokolad istehsalı 20,7 faiz, rezin və plastmas məmulatları 50,5 faiz, beton, gips və sement məmulatların istehsalı 34,4 faiz, elektrik enerjisi, qaz istehsalı və bölüşdürülməsi 11,4 faiz çox olub. Bu artımda rayon ərazisində fəaliyyət göstərən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu, "Neftqaztikinti" tresti, "NJT-2000" firması, "Kaspi Yıldız" MMC, "Bakı Yağ Qida Sənaye" ASC, "Körpü Tunel" ASC, "Ulduz" Fabriki və sair kimi müəssisələrin əhəmiyyətli rolu olub. Müəssisələr tərəfindən bazar münasibətlərinin düzgün qurulması nəticəsində 2012-ci ilin yanvar-mart aylarında istehsal olunmuş məhsulun 100,7 faizi istehlakçılara yönəldilib ki, bu da ümumilikdə 107,8 milyon manat təşkil edib.

2012-ci ilin birinci rübündə Nizami rayonunda əsas kapitala 13,6 milyon manat həcmində investisiya yönəldilib. İnvestisiyanın 12,8 milyon manatı, yəni 94,1 faizi dövlət müəssisələrinin, 0,8 milyon manatı, yəni 5,9 faizi qeyri-dövlət müəssisələrinin payına düşür. İstifadə edilmiş investisiyaların 1,8 milyon manatı və ya 13,2 faizi tikinti quraşdırma işlərinə sərf olunub. Eləcə də ticarət sahəsi üzrə 2012-ci ilin ötən dövründə də əmtəə dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin real həcmi 40,9 faiz artaraq 407,9 milyon manat olub. Ötən 3 ayda rabitə sahəsində 24,1 milyon manat dəyərində, əvvəlki ilə nisbətən 2,5 dəfə çox, nəqliyyat sahəsində 13,8 milyon manat dəyərində, əvvəlki ilə nisbətən 45,8 faiz çox xidmətlər göstərilib. Bütövlükdə, ayrı-ayrı sahələr üzrə-sənayedə 9,9 faiz, nəqliyyatda 14,5 faiz, rabitədə 20,6 faiz, dövlət idarəetməsi və müdafiə sahəsində 16,6 faiz, səhiyyədə 13,9 faiz, peşə, elm və texniki fəaliyyət sahəsində 18,1 faiz, daşınmaz əmlakla əməliyyatlar sahəsində 8,4 faiz, digər sahələrdə isə 5,4 faiz artım müşahidə edilib.

Cari ilin ötən dövründə rayonda 532 yeni iş yeri açılıb ki, bunun da 58-i yeni açılmış müəssisə və təşkilatların, 473-ü isə fiziki şəxslərin payına düşür. 2003-cü ildən 2012-ci ilin 1 aprel tarixinə kimi isə ümumilikdə rayonda 18 min 935 yeni iş yeri açılıb və bunun da 18 min 842-i daimi iş yeridir.

Bu günlərdə Nizami rayon icra hakimiyyətində Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin təşkilatçılığı ilə Nizami və Sabunçu rayonlarında regionların sosial-iqtisadi inkişafına həsr olunan "Bakıətrafı qəsəbələrdə sosial proqramların icrasının monitorinqi və təbliği" layihəsi çərçivəsində tədbir keçirilib. Tədbirdə Nizami rayon icra hakimiyyətinin başçısı Tahir Budaqov rəhbərlik etdiyi rayonda görülən işlər barədə məlumat verərək bildirib ki, Nizami rayonunda regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində əsaslı işlər görülüb və bu işlər davam etməkdədir.

Milli Məclisin deputatı Sədaqət Vəliyeva Nizami rayonun sosial-iqtisadi inkişafı barədə "525"ə açıqlamasında bildirib ki, rayonda xeyli sayda işlər həyata keçirilib. Onun sözlərinə görə, aparılan islahatlar nəticəsində müxtəlif sahələrdə uğurlar əldə olunub. S.Vəliyeva təhsil sahəsində ilbəil artan uğurları qeyd edərək söyləyib ki, son iki ildə Nizami rayonu respublika üzrə ali məktəblərə qəbul üzrə birinci yeri əldə edib: "Belə ki, bu rayonda 600-dən yuxarı bal toplayanların sayı çoxdur. Eləcə də rayonda gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük işlər görülüb. Bunun üçün bir müddət əvvəl bərpa olunan "Gənc şahinlər" hərbi oyunu keçirilir. Bu il həmin müsabiqə üzrə rayonun gəncləri həm rayon, həm də respublika üzrə birincilik qazanıblar. Eləcə də, ulu öndər Heydər Əliyevin ildönümü ilə bağlı keçirilən rayonlararası gül müsabiqəsində Nizami rayonu son üç ildə liderliyi əldən vermir. Məktəblərimiz, səhiyyə obyektlərimiz günü- gündən abadlaşır. Rayonun elə bir ərazisi yoxdur ki, orada abadlıq-quruculuq işləri həyata keçirilməsin. Demək olar ki, 10-dan artıq məhəllə abadlaşdırılaraq, yolları asfaltlaşdırılıb və bu gün də həmin işlər davam etdirilir. Bütün bunlarla yanaşı, uşaqlar üçün idman meydançaları tikilir. Qara Qarayev 12, Qara Qarayev 2a və digər küçələrdə uşaq idman meydançaları yaradılıb və rayon sakinlərinin istifadəsinə verilib. 2011-ci ildə 2 məktəb, 1 məktəbəqədər müəssisə, 2 uşaq bağçası, 2 səhiyyə idarəsi yüksək səviyyədə təmir olunaraq təhvil verilib. Hazırda isə 70, 210, 242, 250 nömrəli məktəblərdə sürətli təmir işləri gedir. Şagirdlərin sayının artırılması məqsədilə 220 nömrəli məktəbdə əlavə korpus tikilir. 6 saylı Təcili Yardım Stansiyası yüksək səviyyədə təmir olunur və yaxın zamanlarda təmir işləri başa çatdırılacaq".

S.Vəliyeva əhalinin sosial problemlərindən biri olan istilik sistemləri ilə bağlı xeyli işlər görüldüyünü də qeyd edib. O, həmçinin Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının xətti ilə Nizami rayonunda böyük stadionun tikildiyini və sentyabr ayında 17 yaşlı qızlar arasında keçiriləcək dünya çempionatının müəyyən oyunlarının burada baş tutacağını deyib. Millət vəkili bildirib ki, Nizami rayon ictimaiyyəti, icra hakimiyyəti, Yeni Azərbaycan Partiyasının Nizami rayon təşkilatı, deputatlar rayonun iqtisadi-sosial inkişafında fəallıq nümayiş etdirirlər: "Biz bütövlükdə rayon ictimaiyyəti olaraq ön cəbhədə olan əsgərlərimizlə tez-tez görüşlərə gedirik. Demək olar ki, cəbhənin hər bir istiqamətində olmuşuq. Son belə görüşlərdən biri iyunun 25-də Naftalanda yerləşən N saylı hərbi hissədə olub. Bu görüşlərdə rayon ictimaiyyəti, ağsaqqalar şurasının, ictimai birliklərin nümayəndələri, şəhid ailərinin üzvləri, gənclər yaxından iştirak edir. Eləcə də rayon gənclərinin Quba məzarlığına səfərini təşkil etmişik ki, ermənilərin tarix boyunca azərbaycanlılara qarşı törətdiyi vəhşi əməllərin canlı şahidi olsunlar. Bütün bunlardan çıxış edərək əminliklə deyə bilərəm ki, Nizami rayonu ən fəal rayonlardan biridir".

Nizami rayonunun yaxın perspektivindən danışan S.Vəliyeva bildirib ki, rayonlararası, yaxşı mənada rəqabət mühitinin olması insanların rifahına yönəlib: "Bu rəqabət mühitində biz istəyirik ki, hər zaman bütün sahələrdə- məhəllələrarası aparılan abadlıq işlərində, əhalinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasında, təhsilin, səhiyyənin yüksək olmasında birinci olaq. Rayon rəhbərliyi ilə birgə hər birimiz ölkəmizin bir parçası olan Nizami rayonunun adını daha da yüksəklərə qaldırmağa çalışırıq".

Nizami rayon sakini şərqşünas Seyid Camal Əzimbəyli hazırda bütün respublikada abadlıq quruculuq işlərinin geniş vüsət alıdığını diqqətə çatdırıb. O, yaşadığı Nizami rayonu ərazisində insanların daha sıx məskunlaşması səbəbindən yeni salınan uşaqlar üçün idman parklarının böyük əhəmiyyətə malik olduğunu bildirib: "Rayon ərazisində yeni obyektlərin tikilməsi iş yerlərinin artması deməkdir ki, bu da yeni iş yerlərində çalışan insanların sosial-iqtisadi rifahının yaxşılaşmasına gətirib çıxarır. Əminəm ki, bu inkişaf artan templə davam edəcək".

***Bəxtiyar MƏMMƏDLİ***

***Yazı Nizami rayon İcra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir.***

# Novruz Məmmədov: “ Artıq beynəlxalq aləm də bilir ki, ermənilər Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmaq istəyirlər”

“Azərbaycanın beynəlxalq aləmdə rolu, nüfuzu, fəaliyyəti getdikcə güclənir. Bu proses ötən ildən daha güclü özünü biruzə verməyə başlayıb”.

Belə bir açıqlama ilə Azərbaycan Prezidenti Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov mətbuata müsahibəsində çıxış edib.

O bildirib ki, Azərbaycanın regional və beynəlxalq təşkilatlarda rolu güclənməkdədir.

PA rəsmisi bu gün dünyada gedən proseslərin çox mürəkkəb və intensiv olduğunu bildirib: “Bu proseslər dünyanın aparıcı aktorlarını maraqlandırır. Onların xarakteri, istiqaməti və s. Azərbaycan ən azı Cənubi Qafqazın lider dövlətidir. Azərbaycan regionda böyük layihələrə imza atan dövlətdir və eyni zamanda ölkəmizin təkcə regionda yox, Avropa ilə Asiya arasında, şimal ilə cənub arasında, ümumiyyətlə, dünyanın qaynar nöqtələrində gedən proseslərlə bağlı çox mühüm rolu, çox mühüm körpü kimi fəaliyyəti var. Eyni zamanda bu səfərlər Azərbaycanın gələcəkdə oynayacağı rola bir diqqətdir. Yəni, beynəlxalq təşkilatların və dövlətlərin rəhbərləri Azərbaycanın getdikcə artan rolunun iki-üç ildən sonra daha hansı səviyyədə olacağını bildikləri üçün indidən bu əlaqələri daha da genişləndirirlər”.



Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin həllində tərəflərə hansı dəstəyi verə bilməsinə gəlincə, N.Məmmədov deyib ki, Avropa İttifaqının əsas şüarlarından biri dünyada sülhün və təhlükəsizliyin təmin olunması istiqamətində atılan addımların daha da intensivləşməsidir: “Bu baxımdan, Avrasiya məkanında Cənubi Qafqaz çox həssas regiondur. Cənubi Qafqazda bu gün sülh və təhlükəsizlik təhlükə altındadır. Azərbaycan torpaqlarının 20 faizi iyirmi ildən artıqdır ki, erməni silahlı qüvvələrinin işğalı altındadır. İşğal edilmiş rayonlarda şəhər, kənd və qəsəbələr tamamilə dağıdılıb. Təəssüflər olsun ki, bu münaqişənin həlli ilə bağlı iyirmi ilə yaxın gedən danışıqlarda irəliyə bir addım da atılmayıb. Məsələ burasındadır ki, nə qədər ki, bu münaqişə ədalətli, beynəlxalq hüquq çərçivəsində öz həllini tapmayıb, deməli təhlükə var. Belə geosiyasi həssas məkanda olan münaqişələr təkcə region üçün yox, düşünürəm ki, ümumiyyətlə, dünya üçündə təhlükədir. Dünyanın aparıcı ölkələri ATƏT-in Minsk qrupunun həmsədr dövlətləridir. Eyni zamanda müxtəlif vaxtlarda Avropa İttifaqının rəhbərləri də bu münaqişənin nizamlanması ilə bağlı müəyyən səylər göstəriblər. İndi isə sizin qeyd etdiyiniz kimi Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı geniş fikir mübadiləsi aparılır”.

N.Məmmədov deyib ki, Avropa İttifaqının rəhbəri həm Avropa dövlətlərinin rəhbərləri ilə, həm də beynəlxalq təşkilatlar çərçivəsində belə məsələlərlə bağlı mövqe bildirməlidir: “Bu məsələdə bizim əsas istəyimiz, birinci mesajımız budur. Artıq beynəlxalq aləm də bilir ki, Ermənistan tərəfi hər dəfə müəyyən bəhanə və hiyləgər addımla, metodlarla, manevrlərlə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı gedən danışıqlar prosesini uzatmaq istəyir. Beləliklə, beynəlxalq ictimaiyyəti dezinformasiya ilə aldatmaq istəyir. Bu çox təhlükəli bir məqamdır”.

Digər tərəfdən, N.Məmmədov deyib ki, münaqişə beynəlxalq hüquq və norma prinsipləri çərçivəsində ədalətli həll olunmalıdır: “Bu, gec partlayan bombaya bənzəyir. Ermənistanın separatçı rəhbərləri, erməni xalqı, məsələ ilə bağlı maraqlanan beynəlxalq dövlətlər də bilməlidirlər ki, gec-tez münaqişə ədalətli həll olunmalıdır. Belə olmazsa, bu münaqişə Ermənistan üçün böyük təhlükə olaraq qalacaq. Eyni zamanda region və beynəlxalq aləm üçün də təhlükədir. Artıq beynəlxalq aləm də bilir ki, ermənilər Dağlıq Qarabağ münaqişəsinin həllini uzatmaq istəyirlər. Çünki bugünkü Ermənistan rəhbərləri əslində bu separatçı prosesin yetirmələridir. Ona görə də, onlar öz həyatlarını həm hakimiyyətdə, həm də ümumiyyətlə, fiziki həyatlarını bu münaqişənin mövcudluğu ilə bağlayırlar. Bu nöqteyi-nəzərdən mən düşünürəm ki, ATƏT-in baş katibi Lamberto Zanyer, həmsədrlər, eləcə də bundan öncə Avropa İttifaqı Şurasının prezidenti Herman Van Rompey — bunların hər biri fəaliyyətlərində bu məsələni nəzərə alaraq, ümumi bir mövqe formalaşdırıb münaqişənin həlli üçün səylərini ortaya qoymalıdırlar. Bu istiqamətdə ATƏT-in baş katibinin Azərbaycana səfəri isə xüsusi əhəmiyyət daşıyır. Çünki bu gün bu münaqişənin həlli ilə bağlı əsas qurum kimi ATƏT çıxış edir. Minsk qrupunun həmsədrləri isə ATƏT çərçivəsində fəaliyyət göstərir. Ona görə də, düşünürəm ki, bu səfər zamanı çox ciddi danışıqlar, müzakirələr, fikir mübadiləsi aparılacaq. Bu da öz təsirini təbii olaraq Minsk qrupu həmsədrlərinin bura gəlişində, onların mövqeyində göstərməlidir”.

**PƏRVANƏ**

# Nikolay Patskeviç: "Azərbaycan-Belarus münasibətləri strateji tərəfdaşlıq xarakteri alıb"

**Müsahibimiz Belarusun Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Nikolay Patskeviçdir.**

***— Cənab səfir, Azərbaycanla Belarus arasında münasibətlərin tarixini necə xarakterizə edərdiniz?***

— Belarus və Azərbaycan uzun illər eyni dövlətin tərkib hissəsi olub: əvvəlcə Rusiya İmperiyasının, sonra isə Sovet İttifaqının. Belaruslar və azərbaycanlılar bu illərdə sevinc və kədəri birlikdə yaşayıblar. Xarici müdaxilələr, siyasi repressiyanın dəyirman daşları, sənayeləşdirmə və kollektivləşmənin acı nəticələri — bütün bunlar xalqlarımızın tarixinin bir hissəsidir. İki xalqı birləşdirən əsas tarixi hadisələr faşizm üzərində qələbə, belorusların və azərbaycanlıların bir cəbhədə vuruşduqları Böyük Vətən müharibəsində göstərdikləri qəhrəmanlıqlardır. Belarus xalqı həmin müharibədə respublikamızın faşist işğalçılarından azad olmasında böyük şücaət göstərmiş azərbaycanlıların xatirəsini hər zaman ehtiramla yad edir. Respublikamızın şəhərlərinin küçələrinə Sovet İttifaqı qəhrəmanları Həzi Aslanov, Nəcəfqulu Rəfiyev, Aslan Vəzirovun adları verilib, onların heykəlləri ucaldılıb. Bizi təkcə tarixi yaddaş birləşdirmir. Qonaqpərvərlik, tolerantlıq, xoşməramlılıq — bu amillər də belarus və azərbaycanlıları yaxınlaşdıran ümumi xüsusiyyətlərdir. Bunu Azərbaycana və Belarusa gələn hər kəs qeyd edir.

***— Bugünkü əlaqələrimizin səviyyəsini necə qiymətləndirirsiniz?***

— Azərbaycan Cənubi Qafqazda Belarusun strateji tərəfdaşıdır. Ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasından ötən 20 il ərzində əlaqələrimiz möhkəmlənərək strateji tərəfdaşlıq xarakteri alıb. Dövlət başçılarımız arasında sıx münasibətlər var, hökumət, parlament, müxtəlif dövlət idarələri, qurumlar səviyyəsində əlaqələr davamlı inkişaf edir, ikitərəfli əlaqələrin sağlam hüquqi bazası təşkil edilir. Qarşılıqlı ticarətin həcmi dəfələrlə artıb, 2011-ci ildə ticarət dövriyyəsi 1 milyard dollara çatıb. İqtisadi sahədə həyata keçirdiyimiz layihələr qarşılıqlı əməkdaşlığa töhfə verir. İnvestisiya və elmi əməkdaşlıq bu münasibətlərdə mühüm yer tutur, regionlararası əlaqələrin coğrafiyası əhəmiyyətli dərəcədə genişlənib. Bu ilin avqustunda Azərbaycan-Belarus Hökumətlərarası birgə komissiyasının iclası keçirməyi nəzərdə tutmuşuq. Azərbaycan prezidentinin Minskə səfəri gözlənilir və iclas da bu ərəfədə baş tutacaq. İclasda iki ölkə arasında əməkdaşlığın gələcək inkişaf perspektivləri ilə yanaşı, Prezident İlham Əliyevin Belarusa səfəri zamanı imzalanacaq sənədlər müzakirə olunacaq.

İntensiv ticarət və iqtisadi əməkdaşlıq, keçirilən yüksək səviyyəli səfərlər iki ölkə arasında mədəni əlaqələrin inkişafına da güclü təkan verir. İki ölkənin müvafiq nazirliklərinin əməkdaşlığı sayəsində incəsənət, o cümlədən teatr kollektivləri arasında əlaqələr intensiv şəkildə inkişaf etdirilir. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı ilə Belarusun Böyük Milli Akademik Opera və Balet Teatrı arasında 2011-ci ildə əməkdaşlıq haqqında memorandum imzalanıb. Təkcə bu il Bakı səhnəsində Belarus aktyorlarının beş çıxışı baş tutub. İki ölkənin digər teatrları da aktiv şəkildə əməkdaşlıq edirlər. İyunda Sumqayıt Dövlət Musiqili Dram Teatrında V.Qaufın “Karlik-nos” əsəri Belarus Gənc Tamaşaçılar Teatrının baş rejissoru Natalya Başeva tərəfindən tamaşaya qoyuldu. Azərbaycan Dövlət Musiqili Komediya Teatrının yaradıcı heyətinin Minsk




səhnəsində oynadığı Üzeyir Hacıbəylinin “Arşın mal alan” operettası Belarus tamaşaçıları tərəfindən heyranlıqla qarşılandı. Akademik Arif Mehdiyevin rəhbərlik etdiyi “Azərbaycan-Belarus” Dostluq və Əməkdaşlıq Cəmiyyəti xalqlarımız arasında dialoqun inkişafına əhəmiyyətli töhfə verir. Azərbaycanın tanınmış elm, mədəniyyət, incəsənət, təhsil xadimləri, işgüzar adamları cəmiyyətin üzvləridir. Cəmiyyətin xətti ilə reallaşan əhəmiyyətli layihələrdən biri Bakı Slavyan Universitetində fəaliyyət göstərən “Belarus dili və mədəniyyəti mərkəzi”dir. Mərkəz 2010-cu ildə Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana səfəri zamanı açılıb. 2011-ci ilin fevralından burada belarus dilinin tədrisinə başlanılıb. Eyni zamanda M.Tanka adına Belarus Pedaqoji Universitetində “Azərbaycan dili mərkəzi” fəaliyyət göstərir. Bakıda Zərifə Salahovanın yaratdığı Miniatür Kitab Muzeyində Belarus Milli Kitabxanasının miniatür nəşrlərinin sərgisinin təşkilində də “Azərbaycan-Belarus” cəmiyyəti yaxından iştirak edib. İkitərəfli ədəbi əlaqələr inkişaf edir. Keçən il Azərbaycan Yazıçılar Birliyinin katibi Belarus Yazıçılar İttifaqının qurultayında iştirak etdi. Azərbaycanın Belarusdakı səfiri İsfəndiyar Vahabzadə Belarus Yazıçılar İttifaqının və qurumun orqanı olan “Ağ çadır” jurnalının redaksiya heyətinin üzvü seçildi. Rəssamlarımız arasında da əlaqələr genişlənir. Bu ilin mayında tanınmış Belarus rəssamı Zoya Luçeviç Bakıda “Qız qalası” beynəlxalq incəsənət festivalında, iyunun əvvəllərində isə “Tullantıdan incəsənətə” beynəlxalq sənət festivalında iştirak etdi. Azərbaycan nümayəndələri müntəzəm şəkildə Belarusda keçirilən “Listapad”, “Vitebskdə Slavyan bazarı”, “Dostluq çələngi”, “Ağ çadır” kimi beynəlxalq incəsənət festivallarında iştirak edirlər. 2012-ci ilin oktyabrında ölkələrimiz üçün mühüm hadisə — Belarusda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi gözlənilir. Cavab tədbiri olaraq 2013-cü ildə Azərbaycanda Belarus Mədəniyyəti Günlərinin keçirilməsi nəzərdə tutulub. Bizim təsviri sənət sahəsində çox yaxşı sənətkarlarımız var. Ümid edirəm ki, onlar Azərbaycan və Belarusun incəsənət muzeyləri arasında imzalanmış əməkdaşlıq haqqında müqavilə çərçivəsində sərgilərin mübadiləsini həyata keçirə biləcək. Azərbaycan təmsilçilərinin “Eurovision” mahnı yarışmasında stabil olaraq yüksək yerləri əldə etməsi müasir Azərbaycan estradasına marağı artırıb. Təəssüf ki, hələlik kinematoqrafiya sahəsində az əməkdaşlıq edirik. Düşünürəm ki, birgə səylərimizlə bu boşluğu da doldura bilərik. Real hadisələr əsasında birgə film çəkməklə bağlı maraqlı ideyamız var. Bu bizim ümumi tariximizin ən parlaq səhifələrini əks etdirə bilər. Bütövlükdə inanıram ki, bir-birimizi çox tanıdıqca mədəni əlaqələrin inkişafında qarşımıza daha geniş üfüqlər açılacaq. Əminəm ki, 2013-cü ildə diplomatik əlaqələrimizin 20 illik yubileyi ölkələrimizin mədəni həyatına çoxlu maraqlı hadisələr bəxş edəcək.

***— Cənab səfir, Azərbaycana gələnə qədər ölkəmiz haqqında nələri bilirdiniz? Burada yaşadığınız müddətdə ölkəmiz və onun insanları sizdə hansı təəssüratı yaratdı?***

— 2006-cı ilə qədər Azərbaycanda Belarus nümayəndəliyi yox idi. Bizim jurnalistlər praktiki olaraq burada işləmirdilər. Ona görə də Belarus sakinləri Azərbaycana bir qədər yad nəzərlərlə baxırdı. Bu, bizi müəyyən dərəcədə mənfi stereotiplərin əsiri etmişdi. Buraya gələnə qədər mənim Azərbaycanla bağlı təsəvvürlərim daha çox sovet dövrü təsəvvürlərinə əsaslanırdı. Məktəb illərindən Azərbaycan neftçilərinin uğurları, Neft Daşları haqqında eşitmişdim. Futbolla maraqlananların çoxu keçmiş ittifaqın yığma komandasında Banişevski-Malofeyev tandemi ilə qürur duyurdular. Mən çox xoşbəxtəm ki, tale mənə Azərbaycanda çalışmaq, bu ölkə haqqında biliklərimi xeyli genişləndirmək imkanı bəxş edib. Ölkənizdə tikintinin vüsət alması, Bakının fövqəladə arxitekturası və zəngin təbii landşaftı insanda gözəl təəssürat yaradır. Mənim üçün ən yaxşı kəşf buradakı insanlar oldu. Azərbaycanda artıq 6 ildir ki, işləyirəm və bu illər mənim üçün çox yaddaqalan olub. Mən hərdənbir qayğılı, narahat adamlar görürəm. Lakin heç vaxt qəzəbli və sərt adamlarla rastlaşmamışam. Həyata keçirdiyimiz birgə layihələr sayəsində azərbaycanlıların zəhmətsevərliyi, biliyi, bacarığı, yüksək nəticəli yaradıcılıq qabiliyyətləri ilə yaxından tanış olmaq imkanı qazandıq. Azərbaycan və Belarus dövlət müstəqilliyinə doğru uzun çətin yol keçib, tez-tez başqa dövlətlərin amansız döyüş meydanına çevrilib. Ola bilsin ki, tarixin dramatik ziqzaqları Azərbaycan mədəniyyətinin xüsusiyyətlərini şərtləndirib. Ən mühümü odur ki, burada mədəni orijinallıq qorunur. Məsələn, musiqini götürək: Azərbaycan musiqisi janrından asılı olmayaraq (klassika, yüngül musiqi, caz və sair) milli harmoniyanın xeyirxahlıq, sevgi və ümidləri ilə “hörülür”. Mən burada özündə neqativlik daşıyan musiqi ilə rastlaşmamışam.

***— Ölkələrimiz arasında turizm sahəsində əməkdaşlığı necə qiymətləndirirsiniz?***

— Turizm istiqamətində əməkdaşlıq böyük əhəmiyyət kəsb edir və hələlik potensial tamamilə reallaşmayıb. Ölkələrimiz arasında turistlərin mübadiləsini genişləndirmək üçün birbaşa aviareyslər, vizasız rejim var. Belarus sanatoriyaları və pansionatları orta qiymətləri və yüksək səviyyədə xidməti ilə əcnəbilərin diqqətini cəlb edir. Xeyirxah və yüksək ixtisaslı heyət, ixtisaslaşdırılmış müalicə proqramları, canlı təbiət, mineral mənbələr, Belarus tarixinin nadir abidələri ilə tanışlıq imkanı — bütün bunlar Belarusda bir dəfə istirahət edəni yenidən bizim ölkəyə gəlməyə sövq edir. Öz növbəsində belaruslar məşhur Azərbaycan kurortu Naftalana böyük maraq göstərirlər. Yenə də müxtəlif təbiət landşaftları, nadir tarixi abidələr. Xüsusilə də mən turistlərə məsləhət görərdim ki, Bakının əsrarəngiz görünüşündən zövq alsınlar. Onun siması surətlə dəyişir, arxitekturası isə insanı heyrətləndirir. “Eurovision” müsabiqəsinə gələn hər kəs bunu gözləri ilə gördü.

**PƏRVANƏ**

# QHT Əməkdaşlıq Alyansı hesabat verib

***RUFİZ QONAQOV:*** “DÖVLƏTİN QHT-lərə TƏRƏFDAŞ KİMİ BAXMASI VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İNKİŞAFINA DAHA GÜCLÜ TƏKAN VERƏCƏK”

Dünən Beynəlxalq Mətbuat Mərkəzində QHT Əməkdaşlıq Alyansı bir illik fəaliyyəti ilə bağlı mətbuat konfransı keçirib. Alyansın Şura üzvü, İcra Katibliyinin rəhbəri Rəfail Becanov bildirib ki, QHT Əməkdaşlıq Alyansı 2011-ci ilin iyulun 8-də təsis edilib. O, Alyansın məqsədləri barədə danışıb: “Əsas məqsədinin QHT-lərin müxtəlif və ölkəyüklü məsələlərdə, vətəndaş cəmiyyətinin inkişafı üçün əməkdaşlıq etməsi olan Alyans ötən bir ilə nəzər saldıqda demək olar ki, öz məqsədlərinin həyata keçirilməsi üçün ciddi addımlar atıb. Öz sözünü deyib və mövqeyini ictimaiyyətə çatdıra bilib. Ölkədə müxtəlif QHT Koalisiyaları fəaliyyət göstərir və bunların hər birinin fəaliyyəti təqdir olunmalıdır. Alyans olaraq, biz hesab etdik ki, bu koalisiyalar ayrı-ayrı sahələri əhatə edir, bu məsələlərdə birgə prinsiplə iştirak edir. Bizim ən böyük amalımız isə istər ölkə üçün əhəmiyyətli olan, istərsə də vətəndaş cəmiyyəti sektoru üçün önəmli saydığımız sahələrdə QHT-lərin, QHT koalisiyalarının əməkdaşlığına nail olmaq və onların eyni mövqedən çıxış etməsinə nail olmaqdır. Hesab edirik ki, bu işin əsaslı şəkildə bünövrəsi qoyulub və bu işlər davam etdiriləcəkdir”.

Alyansın Şura üzvü Rufiz Qonaqov qurumun bir il ərzində gördüyü işlər haqqında məlumat verib. O, deyib ki, Alyans ötən ilin iyul ayında təsisi edilib və dekabr ayına kimi bir çox sənədlər üzərində işləyib: “Bu müddət ərzində Alyansın prioritetləri müəyyən edilib. Dekabr ayında bu prioritetlər təsdiqlənib. Beləliklə də, bu gün QHT Əməkdaşlıq Alyansının qarşısına qoyduğu məqsədlər ölkədə vətəndaş cəmiyyətinin inkişafına, onalrın maddi-texniki imkanlarının genişlənməsinə hesablanıb. Alyans ilk olaraq, iyul ayında QHT-lərin beynəlxalq donorlarla münasibəti ilə bağlı tədbirdə təsis edilib. Alyans QHT-lərə Dövlət Dəstəyi Şurasının sədri, millət vəkil Azay Quliyevlə görüşərək, vətəndaş cəmiyyəti qarşısında duran məsələləri müzakirə edib. Bu ilin yanvar ayında dünya əhəmiyyətli tədbir olan “Eurovizion-2012” Beynəlxalq Mahnı Müsabiqəsi və vətəndaş cəmiyyətinin qarşısında duran vəzifələr mövzusunda tədbir keçirilib. Daha sonra Xocalı faciəsi ilə bağlı internet aksiya təşkil edildi və bu prosesdə dünyanın müxtəlif ölkələrindən 100 mindən çox insan cəlb edilib. Bununla bağlı QHT-lərə Dövlət Dəstəyi Şurası ilə birgə tədbir düzənlənib. Alyans olaraq, Fransa Senatının qondarma erməni genosidini tanımaq cəhdi ilə bağlı Fransa Milli Assambleyasına adlı müraciət edildi və bu müraciət bütün Fransa parlamentinin bütün üzvlərinə göndərilib. Bundan əlavə Fransa Konstitusiya Məhkəməsinə də alyans olaraq xüsusi müraciət göndərilib. Növbəti tədbirimiz isə QHT Evinin yaradılması ilə bağlı oldu. Milli QHT Forumu ilə birgə keçirilən tədbirdə Prezidentə müraciət qəbul edildi və artıq “QHT Evi”nin yaradılması ilə bağlı Prezidentə müraciət edilib və inanırıq ki, yaxın zamanlarda bu həll olunacaq, vətəndaş cəmiyyəti yeni bir hədiyyə alacaq”. R.Qonaqov vətəndaş cəmiyyətinin qarşısında duran vəzifələr və Alyansın gələcək fəaliyyəti ilə bağlı öz münasibətini bildirib. O, dövlətin QHT-lərə daha çox diqqət ayırdığın, vətəndaş cəmiyyətinin inkişafına qayğı göstərildiyini söyləyib: “İyul ayının 2-də Prezident Adminstrasiyası ictimai-siyasi şöbəsinin müdiri cənab Əli Həsənov QHT-lərlə görüşündə də bu məsələni bir daha diqqətə çatdırdı. Bu da onu göstərir ki, QHT-lər dövlətin tətəfdaşıdır. Dövlətin QHT-lərə tərəfdaş kimi baxması vətəndaş cəmiyyətinin inkişafına daha da güclü təkan verəcək. Ona görə də yaxın illərdə maraqlı yeniliklərin şahidi olacağıq”.

Alyansın Şura üzvü Razi Nurullayev Alyansın əsas prioritetləri ilə bağlı çıxış edib. O, Alyansın qarşısına bir sıra məqsədlər qoyduğunu və bununla bağlı işlərini sistemli şəkildə davam etdirildiyin söyləyib: “Bu məqsədlər aşağıdakılardır: “QHT Evi”nin (başqa sözlə QHT İnkibatoru, yaxud İctimai Bina) tikilməsi üçün dövlətin sərmayə yatırması təşəbbüsünün dəstəklənməsi; Hər bir nazirliyin tərkibində İctimai Komitələrin yaradılması; QHT-lərin dövlət qurumları ilə vətəndaşlar arasında körpü rolunu oynaması; Sosial sahibkarlıq ideyasının inkişaf etdirilməsi və Milli donorçuluq institutunun yaradılması; Himayə Fondlarının (Endownment Fund) yaradılması təşəbbüslərinin dəstəklənməsi; QHT-lərin qeydiyyat probleminin həllinə dəstək; QHT-lər və ümumilikdə İctimai Sektor ilə bağlı cari məsələlər üzərində ictimai müzakirələrin təşkili, tədqiqatların aparılması və dövlət siyasətinə təsir göstərmək üçün fəaliyyət”.

Alyansın hazırki koordinatoru Xanoğlan Əhmədov bu gün Azərbaycanda vətəndaş cəmiyyəti quruculuğu istiqamətində tamamilə yeni proseslər başladığını bildirib. Onun sözlərinə görə, QHT-lər ictimai sektorun danılmaz strukturuna çevrilməkdədir: “QHT Əməkdaşlıq Alyansı QHT-lərin öz təşəbbüsü ilə formalaşmış bir koalisiyadır. Bizim məqsədimiz vətəndaş cəmiyyəti quruculuğunda Azərbaycanın milli maraqlarına uyğun olaraq vətəndaş cəmiyyətini sivil topluma çevirməkdən ibarətdir. Mən inanıram ki, Alyans bu fəaliyyəti ilə yaxın gələcəkdə vətəndaş cəmiyyətinin ən mühüm strukturlarından birinə çevriləcək. Alyans doğrudan da bu il ərzində böyük işlər görüb və bu işlər davam etdirilməlidir. Biz Alyansın hazırkı Şurası olaraq, üzərimizə düşən vəzifələrin icrasına çalışırıq. Hesab edirəm ki, bunun öhdəsindən gələcəyik və Alyansın ümumi yığıncağında gördüyümüz işlərlə bağlı hesabat verə biləcyik”. Daha sonra Alyansın Şura üzvləri İradə Yaqubova, Nailə İsmayılova, Yadigar Məmmədli, Gülsel Səfərova və digərləri çıxış ediblər.

**Aqil LƏTİFOV**

# BMT-nin baş katibi və icraçı direktoru dünya ictimaiyyətinə müraciət edib

11 iyul-Ümumdünya Əhali Günüdür. Birləşmiş Millətlər Təşkilatının baş katibi Pan gi Mun bununla bağlı dünya ictimaiyyətinə müraciət edib. Baş katib müraciətdə əhalinin planetdə birgə resurslarla bağlı razılaşdırılmış şəkildə yaşamasının vacibliyini vurğulayıb: “1945-ci ildə Birləşmiş Millətlər Təşkilatının yaradılmasından bəri dünya əhalisinin sayı üç dəfə artmışdır və artım davam etməkdədir. Hal-hazırda, 7 milyarddan çox əhalinin məskunlaşdığı planetdə, biz birgə resurslarla bağlı daha böyük tələblər və beynəlxalq səviyyədə razılaşdırılmış inkişaf məqsədlərinə nail olmaq üçün mühüm problemlərlə üzləşməkdəyik. Baş verən çoxsaylı ərzaq, yanacaq və maliyyə böhranları əhəmiyyətli dərəcədə əziyyətlərə səbəb olmaqla yanaşı, davamlı inkişafın təməli olan bir sıra məsələlərə daha çox diqqət yetirilməsinə ehtiyac olduğunu haqda önəmli xatırlatmadır. Reproduktiv sağlamlıq davamlı inkişafın ayrılmaz hissəsini təşkil edir. Sağlam və nə zaman neçə uşaqlarının olacağına qərar verməyə qadir olan qadınlar və gənclər cəmiyyətlərin inkişafına daha yaxşı töhfə verə bilərlər.Lakin inkişaf etməkdə olan ölkələrdə kənd yerlərində yalnız üç qadından biri hamiləlik zamanı yetərli qayğı görür. Adətən, yoxsulluq və təhsilsizlik nəticəsində baş verən yeniyetmə hamiləliyi dünyanın bir çox hissəsində hələ də tez-tez rast gəlinən haldır. 200 milyondan artıq qadın və yeniyetmə qızların hamiləliyin qarşısını almaq üçün tibbi vasitələrdən yararlanma imkanı yoxdur. Əlavə olaraq, könüllü ailə planlaması proqramları demək olar ki, hər yerdə, resurs çatışmazlığından əziyyət çəkir. Biz daha yaxşı işlər görə bilərik və görməliyik”. Baş katib bu ilki Ümumdünya Əhali Günündə, reproduktiv sağlamlıq üçün tələb və təklif arasındakı boşluğu aradan qaldırmaq üçün üzv dövlətləri təcili birgə fəaliyyət göstərməyə çağırıb: “ Biz reproduktiv sağlamlıq və hüquqları bütün inkişaf və yoxsulluğun azaldılması planlarının ayrılmaz hissəsinə çevirməliyik. Reproduktiv sağlamlığa sərf edilən yatırım, sağlam cəmiyyətlər və daha davamlı gələcək üçün çox mühüm investisiyadır”.

Ümumdünya Əhali Günü münasibəti ilə BMT-nin Əhali Fondunun (UNFPA) icraçı direktoru Babatunde Osotimehin “Reproduktiv sağlamlıq xidmətlərindən universal istifadə imkanı” mövzusunda dünya əhalisinə ünvanlanıb: “Doğuş bir qadının həyatında ən xoşbəxt an hesab oluna bilər. Bununla belə, bu proses bütün dünyada bir çox qadının həyatına son qoyur. Hər gün, hamiləlik zamanı və ya çox vaxt qarşısı alına bilən ağırlaşmalar zamanı 800-dən çox qadın vəfat edir. Hər ölən qadın sayına əlavə olaraq, daha 20 qadın mamalıq fistülu kimi dözülməz doğuş travmalarından əziyyət çəkir. Bu problemin öhdəsindən gəlmək üçün artıq beynəlxalq razılıq əldə etmişik. Hal-hazırda, ehtiyacımız olan yeganə amil imkanlar, sürətləndirilmiş və davamlı fəaliyyətdir”. İcraçı direktor müraciətdə qadın və qızların həyatları və rifahı naminə çalışmağın insan hüquqları baxımından zəruri olduğunu, xalqlarının inkişafında potensiallarından tam yararlana bilmək üçün, qadınların həyatlarını və ailələrini planlaya bilmələrinin vacib şərt olduğunu qeyd edib: “ Məhz buna görə də, beynəlxalq ictimaiyyət reproduktiv sağlamlıq xidmətlərindən universal istifadə imkanının təmin edilməsini prioritet müəyyən etmişdir. Bu gün biz Ümumdünya Əhali Gününü qeyd edərkən, reproduktiv sağlamlıq xidmətləri, xüsusilə könüllü ailə planlaması xidmətindən yararlanmaq üçün götürdüyümüz öhdəliyi bir də nəzərdən keçirməliyik. 1994-cü ildə Qahirədə keçirilmiş Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransda dünya liderləri tərəfindən götürülmüş bu öhdəlik, bu gün də eyni dərəcədə aktualdır. Ailə planlaması əsas insan hüququdur. Lakin ayrı-ayrı şəxslər və cütlüklərin bu hüquqdan istifadə edərək mayalanmaya qarşı vasitələrdən, informasiya və xidmətlərdən istifadə imkanı olmadıqca, heç bir məna daşımır.

Biz həmçinin, gənclərin — xüsusilə yeniyetmə qızların ehtiyaclarını qarşılamaq üçün fəaliyyət göstərməliyik. Bir çox inkişaf etməkdə olan ölkələrdə hamiləlik və doğuş zamanı ağırlaşmalar 10 və 19 yaşlardakı qızlar arasında əsas ölüm səbəbi hesab edildiyi halda, cinsi yolla keçən infeksiyaların ən yüksək göstəricisi 15 və 24 yaşlardakı gənclər arasında müşahidə edilir. Bu gənclərin ehtiyaclarının ödənilməsi və insan hüquqlarının müdafiəsi üçün dərhal tədbirlər görülməlidir. Yalnız belə olduğu təqdirdə, ölkələr yoxsulluq və sosial və iqtisadi bərabərsizliyin azaldılmasına, öz xalqının rifahının yaxşılaşdırılmasına və qadınlar, kişilər, və gəncləri səhiyyə və hüquqlarla təmin etməyə nail ola bilərlər”.

**Sevinc MÜRVƏTQIZI**

# *Ruslan Abışov:* "Vurduğum qol "Xəzər Lənkəran" azarkeşlərinə cavab idi"

**"Xəzər Lənkəran"ın futbolçusu Ruslan Abışov Qol.Az-a müsahibə verib.**



***— Nəhayət, "Xəzər Lənkəran" tilsimi qırdı və avrokuboklarda ilk qələbəsini qazanmaqla bərabər həm də mərhələ keçdi. Ancaq etiraf edək ki, ilk oyunda müqavimətini qıra bilmədiyiniz rəqibinizi bu dəfə rahat məğlub etməyiniz bir qədər gözlənilməz oldu...***

— Biz bu qələbəni qazanmağı çox istəyirdik. Beynimizdə bir fikir var idi: qələbə qazanıb mərhələ keçmək. Çox şadam ki, istədiyimiz nəticəni əldə etdik.

***— İlk qol çox vacib idi ki, həmin qola da sən imza atdın. Epizodu bizim üçün qısaca şərh edə bilərsən?***

— Adrian Pit cərimə zərbəsindən ötürmə verdi. Mən də düzgün mövqe seçərək, topu qapıdan keçirdim.

***— Lənkərandakı matçdan fərqli olaraq, bu dəfə sonuncu müdafiəçi yox, dayaq yarımmüdafiəçisi mövqeyində oynadın. Halbuki daha əvvəllər də bu mövqeydə özünü rahat hiss etmədiyini demisən...***

— Sırf taktika ilə bağlı bu mövqeydə oynamalı oldum. Çünki rəqibi mərkəzdə sıxmalıydıq ki, rahat oynamasınlar.

***— Razılaş ki, növbəti rəqib "Lex" "Nomme Kalyu" deyil.***

— Təbii, "Lex" güclü komandadır. Amma keçilməz deyil. Yəqin ki, məşqçilər korpusu rəqibi dərindən təhlil edib buna uyğun tapşırıqlarını verəcəklər. Hər halda əlimizdən gələni edəcəyik ki, ikinci mərhələni də keçək.

***— Lənkəran azarkeşləri komandanın hücum xəttindən narazılıq edirlər. Səncə, bu mövqeyə yeni oyunçu almağa ehtiyac var?***

— Bu mövqeydə oynayan Subaşiç heç də pis təsir bağışlamır. Lənkəranda da qol vurdu, Estoniyada da. Yeni hücumçuya ehtiyac olub-olmaması ilə bağlı məsələ isə komandanın baş məşqçisinin səlahiyyətində olan məsələdir.

***— Klubunuzun fəxri prezidenti Mübariz Mənsimov oyundan sonra nə dedi?***

— Mübariz müəllimin orada olması bizə böyük ruh verdi. Çünki o, son vaxtlar komandanın səfər oyunlarına getmirdi. Bu dəfə gəldi və qarşılaşmadan əvvəl də bizimlə görüşüb ruh verdi. Ancaq oyundan sonra düzü, görmədik. Deyəsən, işlərinin çoxluğu səbəbindən bir qədər tez getdi.

***— Mərhələni keçən ilk komanda siz oldunuz. "İnter" də demək olar ilk mərhələ səddini dəf edib. Növbə "Bakı" və "Neftçi"nindir. Nə düşünürsən, onlar da sizin uğurunuzu təkrarlaya biləcək?***

— Tam səmimi deyirəm, "İnter"ə də "Neftçi"yə də, "Bakı"ya ürəkdən azarkeşlik edəcəyəm. İnanıram ki, onlar da növbəti mərhələyə vəsiqə qazanacaqlar.

***— Yeri gəlmişkən, necə düşünürsən, vurduğun son qola "Neftçi" azarkeşləri hansı reaksiyanı verər?***

— Artıq reaksiya veriblər (gülür). "Neftçi" və onun azarkeşləri ilə heç vaxt problemim olmayıb və ola da bilməz. İnanırsınız, ard-arda 10-12 nəfər "Neftçi" azarkeşi zəng edib məni təbrik edib və bu uğuruma sevindiklərini bildiriblər. Mən də burdan dəstəklərinə görə, onlara öz minnətdarlığımı çatdırıram.

***— Bəs, "Xəzər Lənkəran" azarkeşləri haqqında nə düşünürsən?***

— Bir kəlmə deyim, "Nomme Kalyu" ilə Lənkərandakı oyunda 15 min azarkeşin bir ağızdan "Ruslan, Ruslan" deyib alqışlaması mənə böyük ruh verdi. Burdan onlara da "sağ ol" deyirəm. Düşünürəm ki, elə son oyunda vurduğum qolla həm də "Xəzər Lənkəran" azarkeşlərinin dəstəyini cavablandırmış oldum. Bundan sonra da çalışacağam ki, oyunum və qollarımla onların inamını, dəstəyini doğruldum.

***— Səhv etmiriksə, "Xəzər Lənkəran"la müqavilədə belə bir bənd var ki, əgər hansısa səviyyəli əcnəbi klub səni istəsə, Lənkəran klubu gedişinə problem yaratmayacaq...***

— Bəli, düzdür, müqavilədə elə bir bənd nəzərdə tutulub. İnşallah, yaxşı təklif olarsa və daha güclü çempionatda oynamaq şansı yaranarsa, "Xəzər Lənkəran" rəhbərliyi gedişimə problem yaratmayacaq.

***— Son oyundan sonra verdiyin açıqlamada "bizi istəməyənlər uduzmağımızı arzulayırdılar" ifadəsini işlətmisən. Yetərincə, ciddi ittihamdır. Yəni, elə azərbaycanlı tapıla bilər ki, "Xəzər Lənkəran"ın məğlubiyyətini arzulasın?***

— Gəlin, bu haqda danışmayaq.

**Anar XANLAROV**

## Ramiz Məmmədov yenidən "Qəbələ"də

"Qəbələ" klubunda yeni təyinat rəsmiləşib. Komandanın sabiq baş məşqçisi Ramiz Məmmədov klubda yeni posta — idman direktoru vəzifəsinə təyin olunub.

Bununla da, 44 yaşlı mütəxəssis 2 illik fasilədən sonra əvvəlki klubunda yenidən fəaliyyətə başlayıb.

Məmmədov 2009/10 mövsümü başa çatandan sonra "Qəbələ"nin baş məşqçi postundan ayrılmışdı. Bunadək isə o, 4 mövsüm komandanın sükanı arxasında olub.

2006/07 mövsümünün gedişində bu posta təyinat alınan Məmmədov baş məşqçi kimi "Qəbələ"ni hamıdan çox — Azərbaycan çempionatının 100, kubokunun 18 oyununa çıxarıb.

## *"Asteras"ın yeni transferi:* "İnter" Azərbaycanın ən güclü klublarından biridir"

"Artıq 3 həftə olar ki, "Asteras"ın düşərgəsindəyəm, təlim-məşq toplanışında iştirak edirəm. Artıq yeni kollektivə uyğunlaşdığımı deyə bilərəm. 1 həftədən sonra tam hazır olacam. Zədəm də tam sağalmaq üzrədir və xüsusi proqram üzrə olan çalışmamı da yekunlaşdırıram". Bu sözləri Yunanıstan mətbuatına açıqlamasında Avropa Liqasının II təsnifat mərhələsində Bakının "İnter" klubunun rəqibi olacaq Yunanıstanın "Asteras" klubunun yeni transferi Mikael Fragoulakis deyib.

O, "İnter" haqqında fikirlərini də bölüşüb: "Bilirik ki, "İnter" Azərbaycanın ən güclü klublarından biridir. İlk mərhələdə qazandıqları 5:0-lıq qələbə də çox şeydən xəbər verir. Lakin biz də qarşımıza ciddi hədəflər qoymuşuq. Odur ki, bu komandaya qarşı oynamağa tam hazırıq. Hər iki oyun çətin olacaq. Növbəti mərhələyə keçmək üçün nəyi bacarırıq, onu da edəcəyik".

Qeyd edək ki, Fragoulakis "Asteras"dan öncə 2006-2012-ci illərdə "Ergotells"in şərəfini qoruyub, bu klubun forması altında 119 oyunda meydanda olmuş, 11 qola imza atmışdı.

## *"Dinamo"nun baş məşqçisi:* "Cavid İmamverdiyev fantastik futbolçudur"

"Biz keçən mövsüm də Çempionlar Liqasında "Neftçi" ilə qarşılaşmışdıq. Həmin vaxt komanda məndə o qədər də yaxşı təəssürat bağışlamadı. Bu dəfə isə tam fərqli "Neftçi" gördüm". Bu sözləri Avstriya toplanışı çərçivəsində "Neftçi" ilə yoldaşlıq görüşü keçirən "Dinamo" (Zaqreb) klubunun baş məşqçisi Ante Çaçiç deyib.

Qeyd edək ki, əlverişsiz hava şəraiti səbəbilə oyun ikinci hissədə yarımçıq dayandırılıb. Bu vaxtadək "Neftçi" rəqibinə 1:0 hesabı ilə qalib gəlirdi. Baş məşqçi "Neftçi" ilə matçın çox maraqlı keçdiyini deyib: "İlk hissədə gözəl oyun izlədik. Təəssüflər olsun ki, belə gözəl qarşılaşma sonadək davam edə bilmədi. "Neftçi"ni göstərdiyi yaxşı futbola görə təbrik edirəm". A.Çaçiç "Neftçi"nin heyətində Cavid İmamverdiyev və Julius Vobayın oyununu bəyəndiyini bildirib. O xüsusilə İmamverdiyevin çıxışından danışıb: "İnanmazdım ki, Azərbaycanda belə oyunçu var. O, fantastik futbolçudur".

**ELAN**

Ukrayna Respublikası Elm, Təhsil, Mədəniyyət və Turizm nazirliyi, Heydər Əliyev adına Ukrayna-Azərbaycan Təhsil, Elm, Mədəniyyət, İdman Mərkəzi, Beynəlxalq Təhsil və Elm Mərkəzi (Bakı).

Ukrayna, Rusiya dövlət universitetlərində, Vrotslav (Polşa) Dövlət universitetində təhsil almağa dəvət edir (bakalavr, mütəxəssis, magistr, aspirant).

**1. T. Şevçenko adına Milli dövlət universiteti ("Milli" statusu universitetlərə ölkə prezidentinin fərmanı ilə verilir).**
**2. Ukrayna Milli Texniki universiteti.**
**3. Ukrayna Milli Aviasiya universiteti.**
**4. Ukrayna Milli Linqvistika universiteti.**
**5. Ukrayna Milli Memarlıq və İnşaat universiteti.**
**6. Kiyev Milli Tibb universiteti (Boqomolts adına).**
**7. Kiyev Dövlət Nəqliyyat universiteti.**
**8. Kiyev Dövlət Ticarət-İqtisadiyyat universiteti.**
**9. Bütün Ukrayna vilayət mərkəzlərinin dövlət universitetləri (Odessa, Donetsk, Xarkov, Poltava, Simferopol, Jitomir, Vinnitsa, Lvov, Çerkassı, Dnepropetrovsk və s.).**

**1. Moskva Memarlıq və İnşaat universiteti.**
**2. Plexanov adına İqtisadiyyat universiteti.**
**3. Moskva Tibb universiteti.**
**4. Moskva Mühəndis-fizika universiteti.**
**5. Dağıstan Dövlət universiteti.**
**6. Rusiya Prezidenti yanında dövlət qulluqçuları akademiyası.**

1. Vrotslav (Polşa) Dövlət universiteti (universitet təhsili bitirənlərə Polşa, Fransa (ikili) diplomunu və İngiltərə Krallığı Logistika (iqtisadiyyat) və Nəqliyyat institutunun sertifikatını verir).

**İxtisaslar:**

**Bütün humanitar, Tibb, İqtisadiyyat, Texniki və başqa ixtisaslar təklif olunur. İxtisaslarla bağlı suallara Xəzər universiteti, Karyera Mərkəzində cavab almaq olar.**

Respublikamızdan xaricdə alınan təhsil Beynəlxalq Təhsil və Elm Mərkəzinin (Bakı) universitetlərlə bağladığı Müqavilələr əsasında aparılır. Bu Müqavilələrə əsasən Mərkəzin vasitəçiliyi ilə universitetlərə qəbul olunanlar təhsil müddətində Mərkəzin diqqət mərkəzində saxlanılacaq.

Ünvan və əlaqə telefonları:
1. 8-ci km. qəsəbəsi, Məhsəti küçəsi 11, Xəzər universiteti, Karyera mərkəzi,
Sənədlərin qəbulu — Əlövsət müəllim, telefon: 050-321-31-69.
2. Tel: (012) 429-66-54, 050-398-32-68, 055-466-26-68.
3. Bakıxanov qəsəbəsi, Mehmandarov küçəsi, 23, "Modern" tədris mərkəzi, tel:(012) 511-93-74
Adil İsgəndərov adına Mədəniyyət sarayı, tel: (012) 429-86-25 (Bədii rəhbər)

## Maradona "Əl Vasl" klubu ilə yollarını ayırdı

Argentina futbolunun canlı əfsanəsi Dieqo Armando Maradona baş məşqçisi olduğu Birləşmiş Ərəb Əmirliklərinin "Əl Vasl" klubundan ayrılıb.

51 yaşlı mütəxəssis baş məşqçi postundan istefa verdiyini açıqlayıb.

Lakin Maradona bunun səbəbini açıqlamayıb.

Qeyd edək ki, "Əl Vasl" klubu ötən mövsümü 8-ci pillədə başa vurmuşdu.

## Hamit Altıntop rəsmən "Qalatasaray"da

"Real" (Madrid) klubunun futbolçusu Hamit Altıntopun yeni komandasının adı məlum olub.

29 yaşlı futbolçu karyerasını Türkiyə Superliqasında davam etdirəcək.

Altıntop son Türkiyə çempionu "Qalatasaray"la 4 illik müqavilə imzalayıb. Artıq futbolçunun yeni komandasındakı qazancı da açıqlanıb. Hamit "Qalatasaray"da ilinə 3,5 milyon avro qazanacaq.

Qeyd edək ki, ötən mövsüm əvvəlində "Bayern"dən "Real"a transfer olunan Altıntop bu komandanın heyətində keçirdiyi 5 oyunda 1 qola imza atıb.

## Yunis Hüseynov tarixi qələbədən danışdı

"Xəzər Lənkəran" klubunun baş məşqçisi Yunis Hüseynov Avropa Liqasının I təsnifat mərhələsində "Nomme Kalyu" ilə keçirdikləri cavab görüşünü şərh edib.

Y.Hüseynov ilk oyunla müqayisədə bir qədər fərqli oynadıqlarını bildirib:

"Qələbə qazandığımız üçün çox şadıq. Bu mərhələdə çətin rəqiblə üzləşmişdik. İlk oyunda müəyyən problemlərimiz var idi. Ancaq bu dəfə ilk oyuna nisbətən bir qədər fərqli oynadıq. Məhz bu da bizə uğur gətirdi".

Qeyd edək ki, Lənkəranda keçirilən ilk görüşdə 2:2-lik bərabərə qalan "Xəzər Lənkəran" səfərdə 2:0 hesabı ilə qələbə qazanaraq tarixi ərzində ilk dəfə mərhələ adlayıb.

## "Çox kobud səhvlər buraxdıq"

"Biz Lənkəranda daha yaxşı oynadıq. Bu gün isə çox kobud səhvlər buraxdıq ki, nəticədə məğlub olduq".

Estoniyanın "Nomme Kalyu" klubunun baş məşqçisi İqor Prins "Xəzər Lənkəran"la oyundan sonra belə deyib.

O, Avropa Liqasını tərk etdiklərinə görə təəssüfləndiyini söyləyib.

**Materialları Anar Cəfərsoy hazırladı**

# Nizami rayonunun sosial-iqtisadi inkişafı: real vəziyyət və perspektivlər

"Artıq 10 ilə yaxındır ki, Nizami rayonunda ticarətlə məşğulam. Bir iş adamı kimi əhalinin alıcılıq qabiliyyətinin get-gedə yüksəldiyini müşahidə edirəm". Bunu Bakı şəhərinin Nizami rayonundakı ticarət mərkəzlərindən birində inşaat materialları mağazalarından birinin rəhbəri İlham Məmmədov deyir. O, əmək fəaliyyətinə 8-ci km bazarında satıcılıqdan başlayıb. İndi isə normal ticarət dövriyyəsi olan tikinti materialları mağazasının sahibidir. Sahibkar bildirir ki, çalışdığı ərazi əhalinin və ticarət obyektlərinin gur olduğu yerdir. Amma alıcı axınına yollardakı tıxaclar təsirsiz ötüşmür: "Bəzən müştərilər bizə deyirlər ki, yollarda yaranan tıxaclar üzündən hər zaman bu və ətraf ərazilərdəki ticarət obyektlərinə gələ bilmirlər. Xüsusən, dayanacaqlardakı avtobusların çoxluğu və onların hərəkətinin istənilən səviyyədə nizamlanmaması tıxaclara gətirib çıxarır. Elə mən özüm də bir obyektdən digərinə hərəkət zamanı bunun şahidi oluram".

Əslində iş olan yerdə problemin də mövcudluğu qaçılmazdır. Nizami rayonunun sosial-iqtisadi inkişafı istiqamətində görülən işlər isə mövcud problemlərin həllinə yönəlib. Bir neçə ildir ki, rayonda yol infrastrukturunun daha da yaxşılaşdırılması istiqamətində intensiv iş aparılır. Artıq bir çox yol ötürücüsü istifadəyə verilib. Nizami rayon İcra Hakimiyyətindən bildirirlər ki, ətraf qəsəbələr arasındakı yollar təmirə bağlıdır. Buna görə də böyük ölçülü avtobuslar istiqamətini ticarət obyektlərinin və avtomobillərin bol olduğu küçəyə yönəldiblər. Nəticədə yollarda tıxaclar yaranıb. Amma bu, müvəqqəti xarakterlidir. Artıq yeni yol ötürücüsü və yeraltı keçidin inşasına start verilib.

Bu rayondan söhbət gedərkən, göz önündə 8-ci km bazarı və onun ətrafındakı digər ticarət obyektləri də canlanır. Demək olar ki, hamı ev, ofis təmirinə lazımi materialları almaq üçün bura üz tutur. Amma dahi şairimizin adını daşıyan ərazinin imkanları bununla məhdudlaşmır. 19,6 kv.km ərazisi olan 32 yaşlı rayonda Bakının ən qədim yaşayış məntəqələrindən sayılan Keşlə qəsəbəsi yerləşir. Bu qəsəbə ərazinin yarıdan çox hissəsini — 10,4 kv.km-i tutur. 2011-ci il aprelin 1-də Prezident İlham Əliyev Keşlədə olarkən, ona qəsəbənin sxemi əsasında asfalt örtüyünün vurulmasına ehtiyac olan küçələr barədə məlumat verilib. Burada da abadlıq və quruculuq tədbirlərinə yolların əsaslı şəkildə təmiri ilə başlanılıb. Yararsız vəziyyətdə olan qəsəbədaxili yollara yeni asfalt örtüyü döşənir. Keşlədə küçələrin işıqlandırılmasına, su və kanalizasiya sisteminin yenidən çəkilişinə də başlanılıb. Dövlət başçısının tapşırığı ilə qəsəbənin Qafqaz yaşayış massivində 600 şagird yerlik yeni məktəb binası inşa olunur. Müasir xəstəxana binasının və Təcili Yardım Stansiyasının tikintisi də nəzərdə tutulur.

Nizami rayonu Nərimanov, Sabunçu, Suraxanı və Xətai rayonlarının inzibati əraziləri ilə əhatə olunur. Heydər Əliyev, Qara Qarayev və Babək prospektləri, son illərdə yeni inşa olunmuş müasir yolötürücü kompleksləri ilə yanaşı, "Koroğlu", "Qara Qarayev", "Neftçilər" və "Xalqlar dostluğu" metro stansiyaları Bakı şəhərinin yol-nəqliyyat infrastrukturunda xüsusi əhəmiyyətə malikdir. Sənayenin müxtəlif sahələrini özündə birləşdirən Nizami rayonunda Heydər Əliyev adına Bakı Neft Emalı zavodu, Elektron Hesablama Maşınları zavodu, Peyk zavodu, "NJT-2000" firması, "Bakı Şərab-1" ASC, "Azərtunelmetrotikinti" SM-in Dəmir-beton Konstruksiyaları zavodu, "Körpü Tunel" ASC, "Bakı Diyircəkli Yastıq" ASC, "European-Tobacco Baku" ASC, "Bakı Yağ-Qida Sənaye" ASC, "Veysəloğlu" MMC, "Kaspi-Yıldız" MMC kimi müəssisələr, 18 bank filialı, Nizami Telefon Qovşağı, 7 rabitə şöbəsi, iri ticarət və iaşə mərkəzləri fəaliyyət göstərir.

Rayonda 22 orta ümumtəhsil məktəbi, "Zəngi" liseyi, Kimya-biologiya təmayüllü respublika liseyi, "Dədə Qorqud" özəl Türk liseyi, Uşaq-Gənclər və Texniki yaradıcılıq mərkəzləri, 20 uşaq bağçası, 1 uşaq evi, kar uşaqlar üçün 2 respublika internat məktəbi, 2 peşə liseyi, 1 peşə məktəbi, 2 kollec və özəl ali təhsil ocağı olan "Xəzər" Universiteti yerləşir. Rayon ərazisində 9 xəstəxana, 13 ambulator poliklinika fəaliyyət göstərir.

7 nömrəli doğum evinin baş həkimi Xatirə Murtuzayeva deyir ki, Bakı şəhəri üzrə qeydə alınan doğuşların 30 faizi məhz bu səhiyyə müəssisəsinin payına düşür. Bura təkcə Nizami rayonundan deyil, ətraf yaşayış məntəqələrindən də dünyaya övlad gətirmək üçün təşrif buyururlar. Doğum evi nəzdindəki 8 nömrəli Qadın məsləhətxanası isə doğuş prosesinin uğurlu alınması üçün zəmin rolunu oynayır. Murtuzayeva onu da bildirir ki, doğuşların sayı ildən-ilə artır. Bunu isə Nizami rayonunda əhali artımı prosesinin bir göstəricisi saymaq olar. Rayon əhalisinin sayı rəsmən 183200 nəfər göstərilsə də, bu rəqəmin daha böyük olduğu heç kimə sirr deyil. Bir tərəfdən, ərazidə açılan yeni iş yerləri, digər tərəfdən, yeni tikilən binalar sayəsində əhalinin sayı durmadan artır. Təkcə 2012-ci ilin I rübündə 532 yeni iş yeri açılıb. Onlardan 58-i yeni açılmış müəssisə və təşkilatlara, 473-ü isə fiziki şəxslərə aiddir. 2003-cü ildən 2012-ci il aprelin 1-dək bu rayonda 18935 yeni iş yeri yaradılıb ki, onun da 18 min 842-i daimi iş yerləridir. Bu ilin yanvar-fevral aylarında Nizami rayonu üzrə orta aylıq əməkhaqqı isə 377,4 manat təşkil edib.

Rayonun icra başçısı Tahir Budaqov vaxtilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində və Prezident Administrasiyasında məsul vəzifələrdə çalışıb. Bəlkə də elə bu səbəbdəndir ki, T.Budaqov Nizami rayonunda aztəminatlı ailələrin sosial müdafiəsi və yoxsulluğun azaldılmasına xüsusi diqqət yetirir. Beynəlxalq təcrübəyə əsaslanaraq aztəminatlı ailələrin sosial müdafiəsi və yoxsulluğun azaldılması istiqamətində mükəmməl sistemin yaradılması məqsədilə "Özünüdəstək" mexanizmi pilot layihə kimi məhz bu rayonda həyata keçirilib. Nizami Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzində ünvanlı dövlət sosial yardımı alan ailələrdən 24-ü Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və QHT-lər tərəfindən "Özünüdəstək" proqramına cəlb edilməsi üçün seçilib. Bu nazirlik 24 ailəyə birdəfəlik sosial yardımın ödənilməsi üçün 36 min manat ayırıb. Hazırda Nizami rayonunda 2412 ailə ünvanlı dövlət sosial yardımı alır və onlardan 524 ailəyə təkrar təyinat aparılıb. Həmin yardımın təyin edildiyi ailələrdən 528-i işləyən, 441-i pensiya alan, 97-si 18 yaşadək olan əlillər, 44-ü müharibə əlili, 261-i digər səbəbdən əlil və 359-u məcburi köçkün ailəsidir. Cari ilin I rübündə rayon ərazisində məşğulluq mərkəzində 95 nəfəri qadın, 5 nəfəri isə qaçqın və məcburi köçkün olmaqla 260 nəfər işaxtaran kimi qeydiyyata götürülüb. Müraciət edənlərdən 143 nəfəri münasib işlə təmin olunub. Onlardan 59-u dövlət müəssisələrində, 84 nəfəri isə qeyri-dövlət müəssisələrində işə götürülüb. Bundan başqa, məşğulluq mərkəzinin inzibati binasında keçirilmiş mini xarakterli 3 Əmək Yarmarkasında 44 nəfər işlə təmin edilib.

Rayonda əhalinin asudə vaxtlarını səmərəli keçirməsi və sağlamlığı istiqamətində görülən tədbirləri isə xüsusi vurğulamaq olar. Burada insanların istər həvəskar, istərsə də peşəkar səviyyədə idmanla məşğul olmaları üçün lazımi şərait yaradılıb. 5 stadion, 8 idman-sağlamlıq kompleksi, 13 №-li İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman məktəbi əhalinin, xüsusilə də gənclərin sağlam həyat tərzinin təminatına xidmət edir.

Ölkəmizdə 2012-ci il Prezident İlham Əliyev tərəfindən "İdman ili" elan olunub. "İdman İli" çərçivəsində ən böyük tədbirlərdən biri sentyabrın 22-dən oktyabrın 13-dək davam edəcək 17 yaşadək qızlar arasında futbol üzrə dünya çempionatı olacaq. 16 ölkənin milli komandasının iştirakı ilə keçiriləcək 32 oyundan 11-i məhz Nizami rayonu ərazisindəki stadionlarda baş tutacaq. Gələn ay istifadəyə veriləcək 8-ci km stadionunda hamıdan çox — 9 qarşılaşma oynanılacaq. Bu arenada tamaşaçı tutumunun 11 mindən çox olması nəzərdə tutulub. Ən müasir tələblərə cavab verən idman qurğusu Tofiq Bəhramov adına Respublika stadionundan sonra ikinci ən böyük arena sayılacaq. AFFA-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr Departamentinin rəisi Mikayıl Nərimanoğlu deyir ki, 8-ci km stadionu əhalinin sıx olduğu ərazidə salınıb. Bu arenada keçiriləcək oyunlar insanların futbola marağını daha da artıracaq.

Daha bir iritutumlu arena — 7600 yerlik "Şəfa" stadionu da Nizami rayonu ərazisində yerləşir. Bu stadion isə "Şəfa" İdman Sağlamlıq Kompleksi nəzdində fəaliyyət göstərir. Heydər Əliyev prospektindəki idman qurğusu da təmir olunub və müasir görkəmi ilə hamını valeh edir. Bu stadionda ev oyunlarını keçirən ikiqat Azərbaycan çempionu "İnter" 2011-ci ilin yanvarında "MDB və Baltikyanı ölkələrin çempionlarının Birlik Kuboku"nu Bakıya gətirib. AFFA-nın prezidenti Rövnəq Abdullayev bu komandanın adını dəyişdirərək, "Keşlə" qoymasına dair təklif irəli sürüb. Təklif qəbul olunsa, Nizami rayonunun qədim yaşayış məskəninin adını daşıyacaq komandanın azarkeş sayında xeyli artımın olacağı şübhə doğurmur.

Nizami rayon icra hakimiyyəti yaxın perspektiv üçün görəcəyi işləri də müəyyənləşdirib. İlin sonunadək mövcud qazanxanalara verilən elektrik enerjisi, qaz və su təchizatının əhali sektorundan ayrılması işinin sona çatdırılması, yüksək gərginlikli hava xətlərinin yeraltı xətlərlə əvəz olunması işinin davam etdirilməsi, 133, 135, 137 və 139 saylı evlərin istilik təchizatının yaxşılaşdırılması məqsədilə 2 yeni fərdi qazanxananın inşası, 18 yaşayış evinin aşağı paylayıcı istilik xətlərinin təmiri, Keşlə qəsəbəsində 2 yeni su anbarının tikintisi nəzərdə tutulub. Yararsız dam örtüklərinin dəyişdirilməsi, rayonda yaşıllaşdırma işlərinin davam etdirilməsi, 15-dən artıq ünvanda yolların yenidən əsaslı asfaltlanması, Keşlə qəsəbəsində inşa edilən yeni məktəb binasının istifadəyə verilməsi də planlaşdırılıb.

**Elşən MƏMMƏDOV**
**Nizami rayon icra Hakimiyyəti və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.**

**Qəzet 1992-ci il noyabrın 17-dən çıxır.**

**Baş redaktor:** Rəşad Məcid
**Redaktor:** Yaşar Əliyev
**Baş redaktor müavinləri:** Yusif Rzayev, Seyfəddin Hüseynli
**Redaktor müavinləri:** Aydın Bağırov, Mirhacib Məcid, İsgəndər Həsənov

Qəzet bazar və bazar ertəsindən başqa hər gün çıxır
**Ünvan:** AZ1033, Bakı, Ş.Mustafayev küçəsi-27/121
Telefon: 566-67-98, 566-93-40
Faks: 566-25-20
**İnternet ünvanı: www.525.az**
**E-mail: qezet525@mail.ru**
Qəzet "Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunub.
Təsisçi: "525" şirkəti
İndeks: 0046, tiraj: 2250, sifariş:2374
"TURAN", "TREND", AzərTAc, "AssA-İradə", APA və "OLAYLAR"ın informasiyalarından istifadə olunub.
Dərc olunan reklamların mətninə görə redaksiya məsuliyyət daşımır.
® işarəsi altında dərc olunan materiallar reklam xarakterlidir.